

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 fevral 2026-cı il, çərşənbə

№ 031 (7098)

Qiyməti 60 qəpik




# Yeni dünya nizamında Azərbaycanın yeri: Münxendən yüksələn strateji baxış

Bax səh. 2

# Bakı dünyaya sülh, tərəfdaşlıq və təhlükəsizlik mesajı verir

## Azərbaycan-Çin ənənəvi dostluq münasibətləri daha da güclənəcək

Bax səh. 3

## Yeni Azərbaycan Partiyası: xalqın iradəsinə söykənən siyasi etimad ünvanı




Bax səh. 4

# Azərbaycanın rəqəmsal arxitekturası necə qurulur?

Bax səh. 5

## "Kupça"ların verilməsində yenilik...



Bax səh. 7

## Veliko Tırnovoda "Şuşa" parkı salınacaq

Bax səh. 6

## Ruben Vardanyan 20 il müddətinə azadlıqdan məhrum edilib

Bax səh. 5

## Azərbaycan regionun nəqliyyat körpüsünə çevrilir

Bax səh. 6




# Yeni dünya nizamında Azərbaycanın yeri: Münxendən yüksələn strateji baxış

## Bakı dünyaya sülh, tərəfdaşlıq və təhlükəsizlik mesajı verir

Ənənəvi Münxen Təhlükəsizlik Konfransı bu il qlobal geosiyasi gündəliyin ən həssas və taleyüklü məqamlarının müzakirə edildiyi platforma kimi yadda qaldı. Beynəlxalq münasibətlər sistemində dərin transformasiyaların baş verdiyi, güc balansının yenidən formalaşdığı, təhlükəsizlik arxitekturasının əvvəlki mexanizmlərinin sarsıldığı bir dövrdə Münxen tribunası dövlətlərin gələcəyə baxışını ortaya qoyduğu əsas meydan rolunu oynadı. Məhz belə bir mərhələdə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışları, keçirdiyi görüşlər və panel müzakirələrində səsləndirdiyi fikirlər təkcə regional deyil, qlobal miqyasda diqqət mərkəzinə çevrildi.

Azərbaycan artıq klassik "post-münaqişə dövləti" deyil, sülh əldə etmiş və yeni inkişaf mərhələsinə qədəm qoymuş aktor kimi çıxış edir. Prezidentin Münxendə verdiyi mesajların ana xəttini sülh, əməkdaşlıq, təhlükəsizlik və yeni ticari imkanlar təşkil edirdi. Bu dörd istiqamət, əslində, Bakının yeni inkişaf strategiyasının sütunlarıdır. Bu strategiya yalnız milli maraqlara söykənmir, eyni zamanda, qlobal münasibətlər sistemində daha inklüziv, qarşılıqlı asılılığa əsaslanan və rəqabətdən tərəfdaşlığa keçidi təşviq edən model təklif edir. Bu isə öz növbəsində rəqabət mühitini destruktiv qarşıdurmadan konstruktiv tərəfdaşlığa transformasiya edir. Münxen platformasından səsləndirilən mesajlar göstərdi ki, Bakı yalnız regional aktor deyil, həm də yeni geosiyasi və geoiqtisadi düzənin fəal iştirakçısıdır.

**Sülhü əldə etmiş dövlət başçısının mesajı: əməkdaşlıq və tərəfdaşlıq prioriteti**

Azərbaycan artıq illərdir ki, bu konfransın ən diqqət mərkəzində olan iştirakçılarından biridir. 2206-cı il konfransı isə bir sıra məqamlarına görə fərqlənir - Bakı ilk dəfədir ki, konfransa sülhü əldə etmiş ölkə kimi qatılır. Bu isə bütün dünyaya bir mesajdır - inkişaf üçün sülh ən vacib predmetdir. Fevralın 13-də Münxendə Azərbaycan telekanallarına müsahibəsində dövlət başçısı bu məqamı xüsusi vurğuladı: "Həmişə olduğu kimi, bizim mesajımız əməkdaşlığa, sülhə istiqamətləndirilib. İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır - əməkdaşlıq, sülh, tərəfdaşlıq. Təbii ki, Azərbaycanın həm təhlükəsizlik sahəsində artan rolu, bizim imkanlarımız, eyni zamanda, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, nəqliyyat, bağlantılar, süni intellekt - yəni bütün bu məsələlər bu gün dünyanın əsas gündəliyini təşkil edir. Ona görə Azərbaycan da bu sahələrdə geridə qalmır".

Bu fikirlər Azərbaycanın ən yeni tarixdə keçdiyi yolun siyasi yekunu kimi qiymətləndirilə bilər. Bu bəyanat təkcə diplomatik ritorika deyil, regionda yaranmış yeni reallıqların ifadəsidir. Azərbaycan artıq münaqişə gündəmini arxada qoyaraq inkişaf, inteqrasiya və əməkdaşlıq gündəmini önə çıxarır. Vurğulandığı kimi, əməkdaşlıq, sülh və tərəfdaşlıq anlayışlarının bir-biri ilə sıx bağlı şəkildə təqdim edilməsi təsadüfi deyil - müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik anlayışı klassik hərbi çərçivədən çıxaraq enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları, texnoloji inkişaf, süni intellekt və iqtisadi dayanıqlılıq kimi elementləri də əhatə edir. Prezidentin vurğuladığı enerji təhlükəsizliyi və nəqliyyat məsələləri Azərbaycanın artıq Avropanın və daha geniş coğrafiyanın enerji təminatında mühüm rol oynadığını göstərir. Süni intellekt və rəqəmsal transformasiya kimi mövzuların da gündəmə gətirilməsi Azərbaycanın yalnız resurs ixrac edən ölkə deyil, eyni zamanda, innovasiya və texnoloji adaptasiya istiqamətində də iddialı olduğunu göstərir. Beləliklə, Münxendə səsləndirilən bu mesaj göstərir ki, Azərbaycan özünü qlobal təhlükəsizlik gündəliyinin passiv izləyicisi deyil, aktiv iştirakçısı kimi təqdim edir. Sülh əldə etmiş dövlət statusu isə bu iştirakçılığa əlavə legitimlik və siyasi çəki qazandırır.

**Dəhlizlər strategiyası: enerji və nəqliyyatdan rəqəmsal bağlantılara**

Bakı yeni dövrdə Cənubi Qafqaz - Mərkəzi Asiya - Kiçik Asiya geostrateji regionunu dəhlizlər qovşağına çevirir. Uzunmüddətli strateji baxışda dəhlizlər məsələsi yalnız enerji və ya daşımaçılıqla məhdudlaşmayacaq - bu siyasət elektrik və fiber-optik xətləri də əhatə edən genişmiqyaslı bağlantı konsepsiyasına çevriləcək. Bu, klassik tranzit ölkə modelindən daha geniş - inteqrasiyaedici qovşaq modelinə keçid deməkdir. Sitat: "Biz artıq uzun müddətdir ki, dəhlizlərin yaradılmasının təşəbbüskarıyıq - enerji dəhlizlərindən başlayaraq, nəqliyyat dəhlizləri ilə davam edərək, hazırda isə artıq elektrik və fiber-optik dəhlizləri də əhatə etməklə. Buna görə də ölkəmizin potensialı möhkəmləndikcə, beynəlxalq əlaqələr inkişaf etdikcə, biz bir növ mövcud bağlantı konsepsiyasına yeni elementlər əlavə edirik".

Beləliklə, Azərbaycan artıq yalnız resurs ötürən deyil, həm də regionlararası əlaqələri koordinasiya edən mərkəz funksiyasını yerinə yetirir. Mövcud bağlantı konsepsiyasına yeni elementlərin əlavə edilməsi ölkənin dəyişən qlobal tələblərə operativ uyğunlaşdığını göstərir. Xüsusilə rəqəmsal infrastrukturun - fiber-optik dəhlizlərin - vurğulanması gələcək iqtisadiyyatın əsasının bilik və informasiya üzərində qurulduğunu nəzərə aldıqda mühüm əhəmiyyət daşıyır.

Dəhlizlərin genişləndirilməsi siyasəti dünya üçün alternativ marşrutlar, daha təhlükəsiz təchizat zəncirləri və logistika xərclərinin azalması deməkdir. Qlobal ticarət sistemində baş verən geosiyasi gərginliklər fonunda alternativ yolların mövcudluğu iqtisadi təhlükəsizliyin əsas şərtinə çevrilib. Azərbaycan məhz bu boşluğu dolduraraq yeni inkişaf yolu təklif edir.

**Geostrateji üstünlüklər və suveren təhlükəsizlik modeli**

Azərbaycanın coğrafi mövqeyi tarixən üstünlük kimi qiymətləndirilsə də, müasir mərhələdə bu üstünlük strateji dividendə çevrilib - Şərqlə Qərbin kəsişməsində yerləşən ölkə hər iki istiqamətdə sıx əlaqələr quraraq əməkdaşlığı hədəfləyən xarici siyasət modeli formalaşdırıb. Sitat: "Bizim çox üstünlüklərimiz var: coğrafiya, həm Qərbdə, həm də Şərqdə qonşularla sıx əlaqələr, elektrik enerjisinin artıqlığı, hazırlıqlı kadrlar və bir çox digər üstünlüklər. Buna görə də bu gün Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir. Azərbaycanın öz təhlükəsizliyini və suverenliyini öz gücü ilə təmin etməsi nəzərə alınmaqla, təbii ki, ölkəmizin beynəlxalq nüfuzu daha da artıb".

Bəli, həm Qərb, həm də Şərq üçün ehtiyac duyulan ölkəyə çevrilmək ciddi diplomatik və iqtisadi uğurun nəticəsidir. Elektrik enerjisinin artıqlığı, hazırlıqlı kadr potensialı və güclü infrastruktur Azərbaycanın daxili dayanıqlığını təmin edir. Ən mühüm məqam isə ölkənin öz təhlükəsizliyini və suverenliyini öz gücü ilə təmin etməsidir. Bu amil beynəlxalq nüfuzun artmasında həlledici rol oynayır. Çünki müasir dünyada güclü daxili dayanıqlıq xarici tərəfdaşlıq üçün əsas şərtdir. Azərbaycan inkişafın regional deyil, qlobal tendensiyaya çevrilməsini hədəfləyir. Bu isə ölkənin təşəbbüskar və proaktiv siyasət yürütməsinin göstəricisidir.

**Cənubi Qafqazda yeni mərhələ**

Müasir dövrün ən mühüm regional hadisələrindən biri Bakının Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturası formalaşdırmasıdır. Ermənistan ilə Azərbaycan arasında sülh prosesinin irəliləməsi tarixi dönüş nöqtəsidir. Bir zamanlar icrası mümkünsüz görünən layihələr və kommunikasiyaların açılması artıq real perspektiv kimi dəyərləndirilir. Münxen platformasında bu məsələnin yenidən gündəmə gətirilməsi beynəlxalq ictimaiyyətin də bu prosesi diqqətlə izlədiyini göstərir. Fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələrində bu məqama toxunan Prezident sülhün üstünlüklərini ortaya qoyub. Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlar regional əməkdaşlıq imkanlarını genişləndirir. Sülh müqaviləsinin imzalanması və kommunikasiyaların açılması iqtisadi inteqrasiyanı sürətləndirəcək, qarşılıqlı asılılıq mexanizmini gücləndirəcək. Bu isə uzunmüddətli sabitliyin əsas təminatıdır.

Beynəlxalq ictimaiyyət artıq Azərbaycanın təşəbbüskar rolunu qəbul edir. Regionda davamlı sülhün təmin olunması yalnız iki ölkə üçün deyil, daha geniş coğrafiya üçün yeni imkanlar açır. Bu kontekstdə Cənubi Qafqaz qlobal nəqliyyat və enerji xəritəsində daha önəmli yer tuta bilər.

**Qlobal təşəbbüsdə Azərbaycanın artan rolu**

Panel iclasında iştirak edən Çin və Qloballaşma Mərkəzinin təsisçisi və prezidenti, Çin Xalq Respublikasının keçmiş dövlət müşaviri Vanq Huiyaonun Azərbaycanın qlobal logistika və iqtisadi inteqrasiya prosesində oynadığı rola verdiyi mühüm beynəlxalq qiymət mənzərəni daha da açıq göstərir - "Bir kəmər, bir yol" təşəbbüsünün Trans-Xəzər regionunu da əhatə etdiyinin xüsusi vurğulanması Azərbaycanın artıq bu nəhəng geoiqtisadi layihənin ayrılmaz halqasına çevrildiyini faktiki olaraq təsdiqləmiş oldu. "Bir kəmər, bir yol" təşəbbüsü yalnız infrastruktur layihəsi deyil, eyni zamanda, yeni qlobal ticarət fəlsəfəsidir. Bu strategiyanın əsas məqsədi Asiya ilə Avropa arasında daşımaları sürətləndirmək, logistika xərclərini azaltmaq və alternativ marşrutlar formalaşdırmaqdır. Məhz bu kontekstdə Trans-Xəzər marşrutunun önə çıxması təsadüfi deyil. Çünki geosiyasi risklərin artdığı bir dövrdə alternativ və təhlükəsiz yolların əhəmiyyəti daha da yüksəlir. Azərbaycan isə Xəzər hövzəsində sabit və etibarlı tərəfdaş kimi çıxış edərək bu marşrutun dayanıqlığını təmin edən əsas ölkələrdən biridir.

Digər mühüm məqam ondan ibarətdir ki, bu layihələr rəqabət aparan böyük güclərin maraqlarının kəsişdiyi məkanda reallaşır. Buna baxmayaraq, Bakı müxtəlif aktorları ortaq iqtisadi maraqlar ətrafında uzlaşdırmağı bacarır. Bu isə Azərbaycanın balanslaşdırılmış və praqmatik diplomatiyasının nəticəsidir.

**Transmilli enerji layihələri və siyasi zəmanət**

Azərbaycanın həyata keçirdiyi transmilli enerji layihələri ölkənin beynəlxalq nüfuzunun əsas dayaqlarından biridir. Bakıdan Aralıq dənizinə uzanan neft kəmərləri və Avropaya qaz nəqlini təmin edən layihələr Azərbaycanın etibarlı tərəfdaş imicini formalaşdırıb. Bu layihələr sayəsində ölkə təkcə enerji ixracatçısı deyil, həm də Avrasiyada enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrilib. Bakı Avrasiyanın mərkəzində bütün qitələri və iqtisadi güc mərkəzlərini bir hədəfə fokuslaya bilib. Sitat: "Azərbaycan bir çox ölkələrin marşrutu boyunca keçən, hamısı ilə yaxşı münasibətlər quraraq Bakıdan Aralıq dənizinə neft kəməri, Bakıdan İtaliyaya qaz kəməri kimi transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran bir ölkədir. Beləliklə, bu, Avrasiyanın çox geniş coğrafiyasında əməkdaşlıq üçün daha bir çox güclü siyasi zəmanət olacaq".

Beləliklə, transmilli enerji xətlərinin müxtəlif ölkələri ortaq iqtisadi maraqlar ətrafında birləşdirməsi həm də siyasi dialoqun və qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir. Enerji təhlükəsizliyi məsələsinin qlobal gündəmdə prioritet olması Azərbaycanın rolunu daha da aktuallaşdırır. Bu layihələr, eyni zamanda, böyük siyasi zəmanət yaradır. Çünki enerji infrastrukturu uzunmüddətli əməkdaşlıq tələb edir və tərəflər arasında sabit münasibətlərin qorunmasını şərtləndirir.

**Rusiya anlamalıdır ki, münasibətlər sisteminin mexanizm alətləri dəyişib...**

Bakının Münxen tribunasından səsləndirdiyi ən mühüm mesajlardan biri isə dünyada yeni münasibətlər sisteminin qurulmasındakı alətlərin artıq dəyişməsidir. Başqa sözlə, böyük güc mərkəzləri özlərinin inkişafı üçün əməkdaşlıq və iqtisadi əlaqələrin daha da gücləndirilməsi yolunu seçməlidir. Güc yolu, təzyiq yolu, yalana söykənən ritorika, hədə siyasəti kimi alətlər artıq nəinki ikinci plana keçib, tamamilə sıradan çıxıb. Bu baxımdan, Azərbaycan həm də geniş mənada yerləşdiyi regionun yeni siyasi-iqtisadi xəritəsinin qurulmasına töhfələr verməyə çalışır. Sirr deyil ki, bu gün qlobal münasibətlər sisteminin ən mühüm problemi Rusiya - Ukrayna müharibəsidir. Müharibənin başa çatması üçün ABŞ-ın təşəbbüsü ilə aparılan danışıqlar prosesi alqışlanır - bununla yanaşı, Rusiya Ukraynadakı digər ölkələrə məxsus olan enerji obyektlərini vurmaqla destruktiv mahiyyətini ortaya qoyur. Ukraynadakı Azərbaycana məxsus enerji obyektlərinin vurulması məsələsi də bu kontekstdən izah edilməlidir. Sitat: "Birinci hücumdan sonra biz düşündük ki, bu, təsadüfən baş verib və rusiyalı həmkarlarımıza Azərbaycanın diplomatik nümayəndəliklərinin, o cümlədən konsulluq idarəsinin, mədəniyyət mərkəzlərinin və səfirliyimizin bütün koordinatlarını təqdim etdik. Bütün bunlara baxmayaraq, iki əlavə hücum oldu. Beləliklə, bu, Azərbaycanın diplomatik nümayəndəliyinə qəsdən edilmiş bir hücum idi və biz xüsusi bəyanat yaydıq, Rusiya səfiri dəvət olundu və ona diplomatik nota verildi. Biz yalnız diplomatik yolla hərəkət edirik. Bundan başqa, heç nə edə bilmərik. Lakin, əlbəttə ki, bu hərəkətlər Azərbaycana qarşı dostyana hərəkət hesab edilmir".

Qeyd edək ki, Rusiya 2025-ci il iyulun 25-də Azərbaycanın Kiyevdəki səfirliyinin binasına raket zərbəsi endirib. Bunun ardınca bir ay sonra - həmin il avqustun 28-də Moskvanın Kiyevə raket zərbələrindən əmələ gəlmiş partlayışın dalğası nəticəsində diplomatik missiyanın binası zədələnib. Səfirliyin konsulluq xidmətinin bölməsinin dam örtüyü dağılıb. Üçüncü zərbə isə noyabrın 14-də endirilib. Rusiyanın Ukraynada Azərbaycana qarşı gizli savaşı diplomatik missiyanın binasına hücumla başa çatmır. O, Azərbaycanın Ukraynadakı neft bazasına da zərbə endirib. Məlumatlara görə, Rusiya 2025-ci il avqustun 8 və 18-də Ukraynanın Odessa vilayətindəki Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) bazasına hücum edib. Yayılan xəbərlərə görə, sonuncu hücum nəticəsində 16 min kubmetrdən çox yanacaq tutumu olan neftbazanın bütün 17 rezervuarı, nasos stansiyası, operator və texniki otaqları məhv edilmiş, dörd əməkdaşı yaralanmışdı.

Bəlli olduğu kimi, Azərbaycan Kiyevdəki diplomatik missiya binasının yerləşdiyi ərazilərin koordinatlarını Moskvaya təqdim etdiyindən, habelə ərazi səfirlik və konsulluqların sıx yerləşməsi ilə tanındığından Rusiyanın həmin əraziyə, xüsusən Azərbaycan səfirliyi və konsulluğuna raket zərbəsi endirməsi yanlışlıq və ya təsadüf sayıla bilməz. Üç dəfə eyni koordinata raket hücumunu necə təsadüf adlandırmaq olar?

Törətdikləri qanunazidd davranışa, dostluğa, mehriban qonşuluğa, strateji tərəfdaşlığa qarşı çıxdıqlarına görə rəsmi Bakıdan üzr istəmək, ziyanın qarşılığını ödəyəcəklərini bildirməkdənsə, Rusiya Xarici İşlər Nazirliyi (XİN) bu hücumu müdafiə edib. Belə ki, Moskva Prezident İlham Əliyevin açıqlamasını, Azərbaycanın Kiyevdəki səfirliyinə məqsədyönlü zərbələr barədə bəyanatında irəli sürdüyü ittihamları rədd etməyə çalışıb. Rusiya XİN bildirib ki, Münxen Təhlükəsizlik Konfransında İlham Əliyevin sözlərini "təəccüblə" qarşılayıblar. Nazirlikdən verilən açıqlamada zərərlərə görə təəssüf ifadə olunub və iddia edilib ki, bu vəziyyət guya, Ukraynanın hava hücumundan müdafiə üçün istifadə etdiyi "Patriot" Zenit Raket Kompleksinin raketinin düşməsi nəticəsində yarana bilər.

Moskva bu addımı ilə beynəlxalq münasibətləri və normaları nüfuzdan salır, onu heçə sayır. Görünür, Rusiya hələ də müasir yeni nizamı ya dərk etmir, ya da qəbul edə bilmir.

*Pərviz SADAYOĞLU*

# Azərbaycan-Çin ənənəvi dostluq münasibətləri daha da güclənəcək

## Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr,

Sizi və Sizin simanızda dost Çin xalqını qarşıdan gələn Bahar bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

Sülh və harmoniyanın rəmzi, yeniliyin, ümidin, təbiətə minnətdarlıq hissinin təcəssümü olan bu qədim bayram bütün qayəsi ilə qarşılıqlı anlaşmanı, dostluğu və birliyi tərənnüm edir. Çin təqvimi ilə yeni ilin gəlişini qeyd edən Çuntsze bayramının xalqınıza xoş ovqat, firavanlıq və bol ruzi-bərəkət gətirməsini diləyirəm.

Azərbaycan ilə Çin arasında möhkəm təməllər üzərində qurulmuş hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsi və yeni məzmun qazanması bizi sevindirir. Şübhəsiz ki, siyasi dialoqumuzun intensivliyi və qarşılıqlı anlaşma bu münasibətlərin daha sürətli inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Əminəm ki, Azərbaycan-Çin ənənəvi dostluq münasibətləri, səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək, strateji tərəfdaşlığımız daha da güclənəcəkdir.

Bu bayram münasibətilə bir daha Sizə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, məsul dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Çin xalqına isə daim əminamanlıq və rifah arzulayıram.

Hörmətlə,

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**



# Azərbaycan Prezidentinin Münxenə və Belqrada səfəri xarici KİV-lərin diqqət mərkəzində


Про агентство Продукти та послуги Пресцентр
interfax-УКРАЇНА ІНФОРМАЦІЙНЕ АГЕНТСТВО
Головна | Події | Політика | Економіка | Інвестиції | Телеком | Медицина | Дипломатія | Регіони | Green Deal | Культура
СПЕЦТЕМИ: Червоний Хрест Відновлення України Війна Енергетика
Події
17:24 14.02.2026
**Президенти України та Азербайджану обговорили реалізацію енергетичних проєктів**
1 хв читати
Фото: Офіс Президента України / www.president.gov.ua
Президент України Володимир Зеленський провів зустріч із президентом Азербайджану Ільхамом Алієвим у Мюнхені в суботу, на якій, сторони обговорили реалізацію проектів в енергетичній сфері.
"Лідери обговорили розвиток двосторонніх відносин та реалізацію проєктів у енергетичній сфері...
ВАЖЛИВЕ
Керівництво РФ проти іноземних контингентів в Україні, тому що планує продовжувати агресію, – Зеленський
Питання енергетичного перемир'я буде обговорюватись під час перемовин, але непублічно, – Зеленський
Якщо Європа буде за столом перемовин, у нас буде більше шансів покласти край війні – Зеленський
РФ утримує приблизно 7 тис. українських полонених, Україна - понад 4 тис. російських – Зеленський
Зміна глави делегації РФ стала сюрпризом для України та додає скепсису – Зеленський


ANVELOPE DE IARNĂ 2026
Яков Кедми: «Дело Эпштейна иллюстрирует деградацию морали западного общества»
NOI.MD
Аналитика Политика Экономика Столица Общество В Мире Спорт Здоровье Проекты Еще...
**Ильхам Алиев: «Мы вступили в период мира, который, я надеюсь, будет вечным»**
14 фев. 22:00 В Мире
**Подписание лидерами Азербайджана и Армении исторического документа в Белом доме в присутствии президента Соединенных Штатов Дональда Трампа означает, что конфликт завершен, и стороны вступили в период мира, который может быть вечным.**
Об этом заявил президент Азербайджана Ильхам Алиев в интервью телеканалу France 24 в рамках участия в Мюнхенской конференции
Он отметил, что с тех пор прошло более шести месяцев, и на границе с Арменией ситуация очень спокойная. Больше нет
ГЛАВНЫЕ ТЕМЫ
Унионизм против государственности
Последствия стихии
Вырубка деревьев
Евровидение
Белый город 590
Украденный миллиард
Закрытие школ и университетов
АНАЛИТИКА И ИНТЕРВЬЮ
Яков Кедми: «Дело Эпштейна иллюстрирует деградацию мора...
День влюблённых или день победы маркетологов?
Банковская цензура: Как молдавские банки превращают людей в...
Закат «немецкого чуда» и рассвет новой альтернативы
ОПРОС
Что нужно делать, чтобы избежать блэкаутов и их последствий?
Закупать больше электрогенераторов
Вернуться к закупкам электроэнергии у МолдГРЭС
Ничего нельзя предпринять
Запасаться всем необходимым самостоятельно
Голосовать


RTV
ПОГЛЕД СА МИШЕЛУКА
Vesti Ekonomija Sport Kultura Magazin Mladi Servisi RTV
Vest > Politika
15. februar 2026. 04:36 → 15:27 | Izvor: RTS, Tanjug, RTV
**Predsednik Azerbejdžana u zvaničnoj poseti Beogradu, potpisani bilateralni sporazumi dve zemlje**
BEOGRAD - Predsednik Srbije Aleksandar Vučić dočekao je ispred Palate Srbije predsednika Azerbejdžana Ilhama Alijeva, koji je stigao u zvaničnu posetu Srbiji. U toku je sednica Saveta za strateško partnerstvo Srbije i Azerbejdžana, očekuje se zajedničko obraćanje medijima.
Za predsednika Alijeva, koji boravi u zvaničnoj poseti Srbiji, priređen je svečani doček uz crveni tepih, počasni stroj Garde i intoniranje himne dve zemlje.
ЈАВНИ АНОНИМНИ КОНКУРС ЗА СЦЕНАРИО ОРИГИНАЛНЕ РАДИО ДРАМЕ НА СРПСКОМ ЈЕЗИКУ
Najnovije Najčitanije
1 Vučić sa Alijevim o projektima u energetici, infrastrukturi, ekonomiji
2 Arakči: Iran neće podleći pritiscima tokom pregovora sa SAD
3 Dežurstva za praznike: Kod lekara u Zmaj Ognjena Vuka, parkiranje se ne plaća
4 Novak Đoković zadržao treće mesto na ATP listi, Karlos Alkaraz i dalje prvi
5 Zadržavanja za teretnjake na izlazu, najduže na Šidu - pet sati
Fotoprognoza

*N.BAYRAMLI*

Azərbaycan Prezidenti İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakı bir sıra ölkələrin kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub. Ukraynanın aparıcı media orqanları Azərbaycan Prezidentinin Münxen Təhlükəsizlik Konfransında iştirakına, keçirdiyi görüşlərə və səsləndirdiyi fikirlərə geniş yer ayırıb.

"Ukrinform" dövlət informasiya agentliyi, "İnterfaks-Ukrayna", "RBK-Ukrayna", "UNİAN", "Cenzor", "Gordon", "Ukrainska Pravda", "24tv.ua", "Korrespondent" və digər informasiya agentlikləri, xəbər portallarında dərc edilən məqalələrdə Prezident İlham Əliyevin Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinə, Rusiya tərəfindən Azərbaycanın Ukraynadakı enerji infrastrukturlarına, səfirliyinə hücumlarına dair fikirlərinə, Azərbaycan və Ukrayna prezidentləri arasında keçirilən görüş yer alıb.

Prezident İlham Əliyevin fikirlərinə istinadla qeyd edilib ki, Azərbaycan bu il Ermənistanla ikitərəfli sülh müqaviləsi imzalamağa ümid edir. Lakin bu, Ermənistan konstitusiyasına edilən dəyişikliklərdən asılıdır. Ötən ilin avqust ayında ABŞ-ın vasitəçiliyi ilə sülh əldə edilməsindən sonra ölkələr iqtisadi əməkdaşlığı bərpa etməyə başladılar və heç bir insident yaşamadılar.

Məqalələrdə, həmçinin dövlətimizin başçısının açıqlamasına istinada yazılır ki, Ukraynada təkcə Azərbaycanın enerji infrastrukturuna hücumlar olmayıb. Eyni zamanda, Azərbaycanın Ukraynadakı səfirliyi üç dəfə hücuma məruz qalıb. "Birinci hücumdan sonra biz düşündük ki, bu, təsadüfən baş verib və rusiyalı həmkarlarımıza Azərbaycanın diplomatik nümayəndəliklərinin, o cümlədən konsulluq idarəsinin, mədəniyyət mərkəzlərinin və səfirliyimizin bütün koordinatlarını təqdim etdik. Bütün bunlara baxmayaraq, iki əlavə hücum oldu. Beləliklə, bu, Azərbaycanın diplomatik nümayəndəliyinə qəsdən edilmiş bir hücum idi və biz xüsusi bəyanat yaydıq, Rusiya səfiri dəvət olundu və ona diplomatik nota verildi", - deyə məqalələrdə Prezident İlham Əliyevin fikirləri qeyd edilib.

Ukrayna mediasında, həmçinin Azərbaycan və Ukrayna prezidentlərinin görüşünün əhəmiyyəti də qeyd edilib.

Moldovanın nüfuzlu "Noi.md" xəbər portalı isə Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "France 24" telekanalına müsahibəsinə dair məqalə dərc edib. Məqalədə dövlətimizin başçısının Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsinə dair fikirlərinə geniş yer verilib. Prezident İlham Əliyevə istinadla yazılır ki, Azərbaycan və Ermənistan liderlərinin Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə tarixi bir sənəd imzalaması münaqişənin bitdiyini göstərir və tərəflər sülh dövrünə qədəm qoyublar. O vaxtdan altı aydan çox vaxt keçib və Ermənistanla sərhəddə vəziyyət çox sakitdir. Artıq Azərbaycan birtərəfli qaydada Ermənistana malların tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırıb. Azərbaycan həmçinin Ermənistanı çox vacib neft məhsulları ilə təchiz etməyə başlayıb.

Məqalədə daha sonra dövlətimizin başçısının fikirlərinə istinadla qeyd edilir ki, yekun sülh müqaviləsi imzalanmadan əvvəl müəyyən rəsmiyyətlər yerinə yetirilməlidir. Azərbaycanın Qarabağ bölgəsinə ərazi iddiaları ilə bağlı ifadənin aradan qaldırılması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilməlidir. Münasibətlərin normallaşdırılması ilə rəsmi sülh müqaviləsi ayrılmalıdır, çünki normallaşma artıq baş verir və bütün müsbət irəliləyişlər buna işarə edir. Lakin, çoxdan, Qarabağın işğalı zamanı qəbul edilmiş Ermənistanın İstiqlaliyyət Bəyannaməsinə istinad var və orada Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistanın birləşməli olduğu bildirilən bənd var. Bu, Azərbaycana qarşı ərazi iddiasıdır və dəyişdirilməlidir.

"Mən bildiyimə görə, Ermənistan referendum keçirməyi planlaşdırır. Bu olan kimi sülh sazişinin rəsmi imzalanmasına heç bir maneə qalmayacaq", - məqalədə dövlətimizin başçısının sitatları yer alıb.

Prezident İlham Əliyevin geniş tərkibli heyətlə Serbiyaya rəsmi səfəri, burada keçirilmiş görüşlər və əldə edilmiş razılaşmalar isə Serbiya mətbuatı tərəfindən geniş işıqlandırılıb. TANYUQ və Beta xəbər agentlikləri, RTS telekanalı, Belqrad Radiosu, "Politika", "Blits", "İnformer" gündəlik qəzetləri, eləcə də aparıcı xəbər saytları iki ölkə arasında strateji əməkdaşlığın genişləndirilməsi, xüsusilə energetika, infrastruktur və iqtisadi sahələrdə birgə layihələr müzakirə olunduğundan bəhs ediblər.

Serbiya mediasının məlumatına görə, səfər çərçivəsində dövlət başçılarının işgüzar naharı təşkil olunub və bu zaman əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Prezident Vuçiç bildirib ki, iki ölkə arasındakı münasibətlər tarixən dostluq və əməkdaşlıq prinsiplərinə əsaslanır və birgə layihələrin reallaşdırılması üçün əlverişli zəmin mövcuddur. Görüşdə energetika sahəsində əməkdaşlığın artırılması xüsusi diqqət mərkəzində olub. Prezident Vuçiç bildirib ki, bu istiqamətdə Azərbaycanla əməkdaşlıq Serbiyanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynaya bilər və qarşılıqlı fikirlər energetika layihələrinin həyata keçirilməsinə yönəlib.

Bundan başqa, serb mediası Prezident Aleksandar Vuçiçin Azərbaycan Prezidenti İlham Əliyevlə gələcək iqtisadi və infrastruktur layihələrini də müzakirə etdiyini yazır. Bu çərçivədə tərəflərin qarşılıqlı faydalı investisiya layihələrinin həyata keçirilməsi perspektivlərini də müzakirə etdiyi vurğulanır. Prezident Vuçiç Azərbaycanı dost və strateji tərəfdaş kimi səciyyələndirib, gələcək əməkdaşlıq istiqamətlərinin müxtəlif sahələri - xüsusilə iqtisadiyyat, energetika, infrastruktur və digər önəmli sektorları əhatə edəcəyini vurğulayıb.

Dövlət başçılarının birgə mətbuat konfransında səsləndirilən fikirlər də mətbuatda geniş əks olunub. Bildirilib ki, tərəflər arasında indiyədək 57 əməkdaşlıq sənədinin imzalanması, Strateji Tərəfdaşlıq Şurasının iclasının baş tutması və müxtəlif sahələr üzrə yeni sənədlərin mübadiləsi də strateji tərəfdaşlığın dərinliyinə dəlalət edir. Media məlumatlarında, həmçinin qeyd edilib ki, Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri çərçivəsində keçirilən yüksəksəviyyəli görüşlər və ikitərəfli müzakirələr Azərbaycan-Serbiya əlaqələrinin möhkəmləndirilməsi və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün yeni perspektivlər açıb.

# İrəvan Qazılığı haqqında kitab nəşr olunacaq

## Nəşrdə qazılığın təşəkkülü, fəaliyyəti və tarixi irsi barədə elmi əsaslı məlumatlar əksini tapır

*Nardar BAYRAMLI*

Qərbi azərbaycanlıların tarixi yurdlarına qayıdışı üçün sistemli tədbirlər həyata keçirilir. Qərbi Azərbaycan İcması beynəlxalq hüquq normalarına uyğun olaraq bu istiqamətdə dünya ictimaiyyətə müraciət edir, müxtəlif konfranslar keçirir. Eləcə də ölkəmizdə Qərbi azərbaycanlıların təşkilatlanması prosesi reallaşdırılır. Bütün bunlar Qayıdış Konsepsiyasında öz əksini tapır.

**İrəvan Qazılığının bərpası tarixi əhəmiyyət kəsb edir**

Bu istiqamətdə atılan önəmli addımlardan biri də ötən ilin may ayında Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının qərarı ilə İrəvan Qazılığının fəaliyyətinin bərpa olunmasıdır. Bu qərar təkcə dini idarəçilik aktı deyil, həm də milli-mənəvi varisliyin rəsmi olaraq tanınmasıdır. Bir zamanlar İslam mədəniyyətinin, dini təhsil və maarifçilik baxımından Cənubi Qafqazın mərkəzlərindən olan İrəvanın dini irsinin bərpası xalqımızın ruhuna qayıdışdır.

Nəzərə alaq ki, vaxtilə indiki Ermənistan ərazisində İslam dini ilə bağlı böyük icma mövcud olub və bu icma tərəfindən müxtəlif ünvanlarda çoxlu sayda ibadət ocaqları, məscidlər yaradılıb. Arxiv sənədlərinə əsasən 1888-ci ildə İrəvan quberniyasında 210 məscid, 1902-ci ilin məlumatına əsasən isə 310 məscid olub. 1889-cu ilədək İrəvan quberniyasında müsəlmanlara xidmət göstərən 49 ruhani dairəsi mövcud olub. Bu dairələrin mollaları 1873-1879-cu illərdə qubernator tərəfindən təyin edilirdi. 1891-ci ildə İrəvan şəhərində 8 məscid, 11 dairə olub, qəzalarda isə məscidlərin sayı 37-yə çatmışdı.

Xüsusilə ermənilər tərəfindən tamamilə yer üzündən silinən İrəvan qalası 60-dək bürcü ilə arxitektura baxımından Şərqin, Türk dünyasının mühüm mədəniyyət mərkəzlərindən biri kimi tanınır. Qaladakı Sərdar sarayı, Sərdar məscidi, XVII əsrin nadir memarlıq abidəsi olan Göy məscid səyyahları həmişə heyran qoyurdu. Qalada daha yeddi məscid fəaliyyət göstərib.

Qeyd edək ki, İrəvan həm də İslam tədris mərkəzlərindən biri olub. Arxiv sənədlərinə əsasən 1891-ci ildə İrəvan quberniyasında 28 mədrəsə fəaliyyət göstərib və bu mədrəsələrdə 637 tələbə təhsil alıb. İndiki Ermənistan ərazisində müsəlman dini icmasının geniş şəkildə mövcudluğu erməni mənbələrində də öz əksini tapıb. Erməni tarixçisi Tadevos Hakopyan yazır ki, 1923-cü ildə İrəvandakı məscid və kilsələrdən əlyazmalar toplanaraq Eçmiədzin kilsəsindəki əlyazmalar fonduna təhvil verilmişdi. Məscidlərdə saxlanılan əlyazmaların böyük əksəriyyətini Quran və İslam dininə aid kitablar təşkil edib. Qafqazın ilk şeyxülislamlarından biri olan Şeyxülislam Fazil İrəvani də 1847-1852-ci illərdə məhz İrəvanda şeyxülislam olub. Ancaq İrəvanda şeyxülislamlıqdan və dini məclisdən əvvəl "müsəlman dini şəriət" idarəsi fəaliyyət göstərib. Bu idarəyə Əkbər Ağa Axund Molla Məhəmməd oğlu başçılıq edib.

XX əsrin sonlarında ermənilərin Azərbaycana qarşı ərazi iddiaları başlaması sonradan qanlı münaqişəyə çevrildi, yüzminlərlə azərbaycanlı tarixi yurdlarından qovuldu. Bundan sonra Ermənistanda mövcud olan, azərbaycanlılara məxsus tarixi, dini və mədəni irs tamamilə yer üzündən silindi. Lakin Qərbi azərbaycanlıların qayıdışının gündəmə gəldiyi hazırkı dövrdə İrəvan Qazılığının fəaliyyətinin bərpa edilməsi çox vacib addımdır.

**Birgə konfrans keçirilib**

Yeri gəlmişkən, bugünlərdə Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Qərbi Azərbaycan İcması ilə birgə konfrans keçirilib. Çıxış edən QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Qərbi Azərbaycan İcmasının 2022-ci ildə təsis olunması dövlətimizin başçısının uzaqgörən siyasətinin təzahürüdür və soydaşlarımızın doğma yurdlarına qayıdışı dövlət siyasətinin mühüm istiqamətidir. O, Qafqaz Müsəlmanları İdarəsinin beynəlxalq platformalarda Qərbi Azərbaycanla bağlı həqiqətləri mütəmadi gündəmə gətirdiyini diqqətə çatdırıb.

Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli İrəvanın və ümumilikdə Qərbi Azərbaycanın zəngin tarixi-mədəni irsindən bəhs edərək, bu ərazilərdə mövcud olmuş məscidlərin, qəbiristanlıqların, memarlıq abidələrinin sistemli şəkildə məhv edildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, bu irsin qorunması və bərpası məsələsi təkcə milli deyil, beynəlxalq hüquq və insan haqları kontekstində də mühüm əhəmiyyət daşıyır. Tədbirin əhəmiyyətinə toxunan icma sədri belə görüşlərin ictimai həmrəyliyin möhkəmləndirilməsi, tarixi həqiqətlərin təbliği və qayıdış ideyasının daha geniş miqyasda təşviqi baxımından xüsusi rol oynadığını bildirib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, İrəvan qazısı Bəxtiyar Nəcəfov İrəvan qazılığının tarixi kökləri və fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirib ki, İrəvan Qazılığı bölgədəki müsəlman icmasının dini-mənəvi həyatında xüsusi rol oynayıb. Arxiv sənədlərinə əsaslanan faktları diqqətə çatdıran qazı İrəvan mahalında çoxlu məscidin və dini təhsil ocağının mövcud olduğunu, deportasiyalar nəticəsində bu zəngin irsin və institusional dini idarəçiliyin fəaliyyətinin dayandırıldığını vurğulayıb.



Bəxtiyar Nəcəfov qeyd edib ki, hazırda İrəvan Qazılığının tarixi ilə bağlı geniş tədqiqat işi aparılır və yaxın vaxtlarda bu mövzuya həsr olunmuş kitab ictimaiyyətə təqdim olunacaq. Əsər arxiv materialları və tarixi mənbələr əsasında sistemli şəkildə tərtib olunub və artıq çapa tam hazır vəziyyətə gətirilib. İrəvan Qazılığının təşəkkülü, fəaliyyəti və tarixi irsi barədə elmi əsaslı məlumatlarla zəngin kitab tarixi həqiqətlərin qorunmasına xidmət edəcək.

Digər çıxış edənlər Qərbi Azərbaycan məsələsinin dövlətin strateji gündəliyində xüsusi yer tutduğunu, milli həmrəylik, tarixi ədalət və soydaşlarımızın doğma torpaqlarına qayıdışı baxımından strateji əhəmiyyət daşıdığını vurğulayıblar. Eyni zamanda, tarixi həqiqətlərin qorunması, maarifləndirmənin gücləndirilməsi və icmanın təşkilatlanmasının vacibliyini qeyd edərək şəxsi xatirələrini, müşahidələrini və dəstək mesajlarını iştirakçılarla bölüşüblər.

**İrəvan Qazılığının ofisi ziyarət olunub**

Bundan əlavə, Qərbi Azərbaycan İcmasının nümayəndələri Qafqaz Müsəlmanları İdarəsində İrəvan Qazılığının fəaliyyəti üçün ayrılmış ofisi ziyarət ediblər. Onlara ofisin şəraiti, inzibati struktur və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, İrəvan Qazılığı tarixi ənənələrə əsaslanan dini-institusional qurum kimi Qərbi Azərbaycan mənşəli soydaşlarımızın dini-mənəvi irsinin araşdırılması, sənədləşdirilməsi və təbliği istiqamətində sistemli iş aparır.

Görüş zamanı İcma rəhbərliyi qazılığın fəaliyyəti, arxiv sənədlərinin toplanması, tarixi mənbələrin tədqiqi, eləcə də İrəvan mahalı və ümumilikdə, Qərbi Azərbaycanda mövcud olmuş dini abidələrə dair materialların sistemləşdirilməsi prosesi ilə yaxından tanış olub. Qeyd olunub ki, deportasiyalar nəticəsində fəaliyyətinin dayandırılmış dini idarəçilik ənənələrinin elmi əsaslarla bərpası və ictimaiyyətə təqdim olunması prioritet istiqamətlərdəndir.

İrəvan qazısı Bəxtiyar Nəcəfov görülən işlər, hazırlanmaqda olan elmi nəşrlər və arxiv materialları əsasında aparılan tədqiqatlar barədə məlumat verib. O bildirib ki, əsas məqsəd İrəvan Qazılığının tarixi irsinin qorunması, sənədləşdirilməsi və gələcək nəsillərə çatdırılmasıdır.

İcmanın nümayəndələri İrəvan Qazılığının fəaliyyətinin əhəmiyyətini vurğulayaraq, bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsi ilə əməkdaşlığın vacibliyini qeyd edib. Bildirilib ki, dini-mənəvi irsin qorunması Qərbi Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq müstəvidə təqdim olunmasında mühüm rol oynayır.

# Yeni Azərbaycan Partiyası: xalqın iradəsinə söykənən siyasi etimad ünvanı

## YAP Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş tədbir keçirilib











Fevralın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyası: xalqın iradəsinə söykənən siyasi etimad ünvanı" adlı tədbir keçirilib.

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının 33 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlayıb və partiyanın Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümü münasibətilə təbrik edib: "Bugünkü tədbir partiyamızın, o cümlədən YAP Yasamal rayon təşkilatının ötən müddət ərzində keçdiyi zəngin və şərəfli inkişaf yoluna bir daha nəzər salınması baxımından mühüm əhəmiyyətə malikdir".

Tahir Budaqov bildirib ki, bu gün dünyada müstəqil, nüfuzlu, qüdrətli və qalib ölkə kimi tanınan müasir Azərbaycanın möhtəşəm uğurlarında siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyasının mühüm rolu və payı var: "Ötən əsrin 90-cı illərinin əvvəlində müstəqilliyini yenicə bərpa etmiş ölkəmizin gələcək taleyini müəyyən edən əlamətdar hadisələrdən biri məhz Yeni Azərbaycan Partiyasının yaradılması olmuşdur. Bu, sadəcə olaraq, bir partiyanın təsis olunması deyil, çoxəsrlik dövlətçilik və müasir müstəqillik tariximizin dönüş nöqtəsidir. Bəllidir ki, Yeni Azərbaycan Partiyasının yarandığı şərait olduqca mürəkkəb dövrə təsadüf edir. Hələ XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlində istər SSRİ miqyasında, istərsə də respublika səviyyəsində dağıdıcı proseslər baş verərkən - sovetlər ittifaqının çöküşü fonunda digər bir sıra ölkələr kimi, Azərbaycan da olduqca çətin vəziyyətlə qarşılaşmışdı. Respublikada faktiki olaraq ictimai-siyasi böhran mövcud idi, iqtisadi tənəzzül, siyasi qeyri-müəyyənlik və vətəndaş qarşıdurması ilə yanaşı, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və ölkəmizin bölgədə təcrid vəziyyətinə düşməsi ciddi təhdidlər, o cümlədən müstəqilliyin itirilməsi təhlükəsi yaratmışdı. Belə bir şəraitdə məqsədyönlü siyasət nəticəsində milli birliyin təmin edilməsi, müstəqil dövlət quruculuğunun həyata keçirilməsi və Azərbaycanın təlatümlərdən xilas edilməsi zərurətə çevrilmişdi. Bunun üçün isə təcrübəli, qətiyyətli, vətənpərvər və milli maraqları hər şeydən üstün tutan güclü siyasi liderə ehtiyac var idi. Bu tarixi şəxsiyyət isə, heç şübhəsiz, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Xalq yalnız onun liderliyi ilə Azərbaycanın müstəqilliyinin qorunub saxlanıla və parlaq gələcəyinin qurula biləcəyinə inanırdı. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının Heydər Əliyevə müraciət edərək yeni, müstəqil Azərbaycan uğrunda Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etməsi də məhz bu inamdan qaynaqlanırdı. Ulu Öndərin həmin müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının yaradılmasına və partiyaya rəhbərlik etməyə razılıq verməsi isə taleyi sual altında olan Azərbaycanın gələcəyi naminə müstəsna əhəmiyyətə malik olmuşdur. Beləliklə, 1992-ci il noyabrın 21-də yaradılan Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması Heydər Əliyevin bənzərsiz liderlik və fenomenal idarəçilik keyfiyyətləri ilə şərtlənmişdir. Qısa müddət ərzində respublikanın bütün bölgələrində yerli təşkilatların yaradılması istiqamətində mühüm addımlar atılmış, müəyyən olunmuş vəzifələrin yerinə yetirilməsi və qarşıda duran hədəflərə çatmaq üçün sistemli fəaliyyət həyata keçirilmişdir".

YAP Sədrinin müavini vurğulayıb ki, yeni dəyərlər yaradaraq siyasi mədəniyyət nümunəsi ortaya qoyan Yeni Azərbaycan Partiyasına göstərilən yüksək etimad onun ümumxalq partiyasına çevrilməsini şərtləndirmişdir: "YAP ölkədə keçirilən bütün seçkilərdə inamlı qələbələr qazanaraq siyasi həyatda avanqard qüvvə - lider partiya olduğunu sübuta yetirmiş, hər bir siyasi marafondan uğurla və daha güclü çıxaraq siyasi sistemdə yerini daha da möhkəmləndirmişdir. Yeni Azərbaycan Partiyası 1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi və xalqın dəstəyi ilə ictimai-siyasi sabitliyin, iqtisadi inkişafın təmin olunması, dövlətçiliyin möhkəmləndirilməsi - milli maraqların qorunması, respublikanın beynəlxalq mövqeyinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görərək mühüm nailiyyətlərə imza atmışdır".

Tahir Budaqov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev siyasi varisliyi təmin etməklə, Azərbaycan dövlətini milli maraqlara, mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasəti ilə zirvələrə daşıyacaq lider yetişdirməklə dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərmişdir: "Cənab İlham Əliyevin 2003-cü ildə ölkə Prezidenti, 2005-ci ildə isə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsindən sonra həm partiyamızın həyatında, həm də Azərbaycanın inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilmiş, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilərək dünyada etibarlı tərəfdaş kimi tanınmışdır. Ən əsası, ölkəmiz öz ərazi bütövlüyü və mütləq suverenliyini təmin etməklə Zəfər zirvəsinə yüksələrək regionumuz üçün də yeni perspektivlər yaratmışdır. Bu gün Cənubi Qafqazda Azərbaycanın konstruktiv siyasəti və prinsipial mövqeyi nəticəsində sülh və etimad quruculuğu uğurla həyata keçirilməkdədir".

"Hazırda sıralarında 750 mindən artıq vətəndaşımızı birləşdirən, öz fəaliyyətində dialoq, konstruktiv əməkdaşlıq, qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərinə söykənən, plüralizmi təşviq edərək siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə mühüm töhfələr verən Yeni Azərbaycan Partiyası müasir çağırış və hədəfləri əsas götürərək məqsədyönlü fəaliyyətini müvəffəqiyyətlə davam etdirir", - deyən YAP Mərkəzi Aparatının rəhbəri əlavə edib ki, bu, partiyamızın ictimai-siyasi dayaqlarını gücləndirir və xalq-iqtidar birliyinin daha da möhkəmlənməsini şərtləndirir.

Tahir Budaqovun sözlərinə görə, YAP milli maraqların qorunmasına siyasi-ideoloji dəstəyin verilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsi, eləcə də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, partiyamızın və ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsinə hədəflənmiş mühüm tədbirlər reallaşdırır: "Dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yeni dövrün çağırışlarından irəli gələrək suveren Azərbaycanın milli maraqlarının təmini üçün öz üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirmək əzmindədir. Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin mütərəqqi siyasi kursuna uyğun fəaliyyətini davam etdirən YAP Yasamal rayon təşkilatı da yeni dövrün reallıqlarından irəli gələn çağırışları diqqət mərkəzində saxlamalıdır. 1993-cü il fevralın 20-də yaradılan YAP Yasamal rayon təşkilatının sıralarında hazırda 34 min nəfərə yaxın üzv birləşmişdir ki, onlardan 18 mindən çoxu qadınlar, 2500-i isə gənclərdir. Bu böyük potensial rayon təşkilatının qarşısında duran bütün vəzifələrin mütəşəkkil qaydada və yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir".

"Ümummilli Liderimizin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Dünən Azərbaycan naminə tarixi məsuliyyəti öz üzərinə götürən Ulu Öndərin ətrafında yaranmış, bu gün qalib xalqın Lideri - Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən YAP sabah da ümumxalq partiyası kimi fəaliyyətini uğurla davam etdirərək xalqımıza möhtəşəm nailiyyətlər qazandıracaqdır. Hər birinizə möhkəm cansağlığı, uzun ömür və şərəfli fəaliyyətində davamlı uğurlar arzulayıram. Yaşasın Ulu Öndərimizin qurucusu olduğu müasir müstəqil Azərbaycan dövləti və Heydər Əliyev dühasının xalqımıza böyük mənəvi-siyasi mirası olan Yeni Azərbaycan Partiyası! Vətənimizi, xalqımızı Zəfər zirvəsinə yüksəldən Müzəffər Liderimiz cənab İlham Əliyevə eşq olsun!", - deyə YAP Sədrinin müavini əlavə edib.

Sonra çıxış edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov qeyd edib ki, Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır: "Partiyanın keçdiyi şərəfli yol xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını və sarsılmaz olduğunu təsdiqləyir. Bu gün müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda Azərbaycan vətəndaşları Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərirlər. Bu istiqamətdə əldə olunan nailiyyətlərdə, heç şübhəsiz, YAP Yasamal rayon təşkilatının da özünəməxsus rolu vardır".

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyətində ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunması, beynəlxalq aləmdə layiqli yer tutması kimi əsas milli prioritetlər istiqamətində qurmaqla cəmiyyətdə yüksək nüfuza malik olub: "Gələcəyə doğru inamla irəliləyən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir. Əldə olunan uğurların siyasi müstəvidə möhkəmləndirilməsində Yeni Azərbaycan Partiyasının, eləcə də YAP Yasamal rayon təşkilatının mühüm xidmətləri var".

44 günlük Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, "Azərbaycan Bayrağı" ordenli Nurlan Mustafayevin anası, "H.Cavid pr.33a" ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini Rahilə Ramazanova bildirib ki, Yeni Azərbaycan Partiyası bugünədək xalqın və dövlətimizin taleyində mühüm rol oynayıb və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərib: "Bu gün partiyamızın gücü Ulu Öndər Heydər Əliyev ideyalarından və Prezident İlham Əliyevin uğurlu siyasətindən qaynaqlanır. Prezident İlham Əliyev ölkəmizin nüfuzunu artırmaqla onu dünyada müstəqil xarici siyasət yürüdən dövlət və etibarlı tərəfdaş kimi tanıdıb. Tarixi Zəfərimizdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan dövləti Liderimiz İlham Əliyevin rəhbərliyi ilə parlaq gələcəyə doğru daha inamla irəliləməkdədir".

Çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yolu keçib: "Yarandığı gündən Yeni Azərbaycan Partiyasının əsas məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulması, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaradılmasından ibarət olub. Partiya ötən müddət ərzində öz məqsədlərinə uyğun fəaliyyət göstərib, çox mühüm nailiyyətlər əldə edib. Ölkəmizin əldə etdiyi uğurlarda Yeni Azərbaycan Partiyasının müstəsna rolu var".

YAP Yasamal rayon təşkilatının 33 illik fəaliyyətindən bəhs edən Bəxtiyar Nəbiyev qeyd edib ki, təşkilat yarandığı gündən bu günə qədər ictimai-siyasi həyatda öz uğurlu fəaliyyəti ilə hər zaman seçilib: "YAP Yasamal rayon təşkilatı Yeni Azərbaycan Partiyasının Proqramına uyğun fəaliyyəti ilə cəmiyyətin müxtəlif təbəqələrinin partiya ətrafında sıx birləşməsinə mühüm töhfələr verir. Təşkilatımız bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasını uğurla təmin edəcəkdir".

Çıxışlardan sonra YAP Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümü münasibətilə partiyanın və rayonun ictimai-siyasi həyatında fərqlənən şəxslərə fəxri fərmanlar təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

# Azərbaycanın rəqəmsal arxitekturası necə qurulur?

Prezident İlham Əliyevin "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə çıxışı zamanı süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatların gələcək inkişafı müəyyən edən prioritet sahələr olmasına diqqət çəkərək dünyada gedən meyillərə uyğun addımlar atılmasını tövsiyə etdi. Mühüm tapşırıqlardan biri rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə dövlət strukturlarında yeni ştat vahidinin yaradılması ilə bağlıdır ki, burada da məqsəd idarəetmənin mobilliyini artırmaq, optimallaşma və səmərəliliyi yüksəltməkdir. Dünya ölkələrində olduğu kimi süni intellektin tətbiqinin dövlət qurumlarında geniş vüsət almasına nail olmaqla, həm də məmurlarının gündəlik fəaliyyətində də əsaslı dönüş yaratmaq mümkündür. Hər hansı bir qərarın düzgün olub-olmaması ilə bağlı süni intellekt yardımçı ola bilər və rəhbər orqanlarında təmsil olunan şəxslərin süni zəka seqmentindən geniş istifadə etməsində də məqsəd məmur-vətəndaş münasibətlərini daha da asanlaşdırmaq, şəffaf ünsiyyət sxemi qurmaqdır.

Eləcə də özəl sektora eyni yanaşmanı tətbiq etməklə istehsal və emal sahələrində məhsuldarlığı artırmaq mümkündür.

Digər bir məqam dövlət xidmətlərinin vahid rəqəmsal pəncərəsi olan "mygov"un imkanlarının daha geniş istifadəsidir. Çünki son illər ərzində müxtəlif dövlət qurumları - nazirliklər və digər dövlət orqanları tərəfindən müxtəlif platforma və tətbiqlər işlənib hazırlanıb ki, bu da vahid ekosistemə inteqrasiyadan kənar rəqəmsal xidmətlərə səbəb olur. Sözsüz ki, buna ehtiyac olmadığından həmin platformaların ləğvi də gündəmdədir. Bütün dövlət xidmətlərinin "mygov" üzərindən həyata keçirilməsi, vətəndaşlara lazım olan bütün xidmətlərin vahid ünvandan göstərilməsi səmərəlilik, ünvanlılıq və əlçatanlıq baxımından mühüm əhəmiyyət daşıyır.

## Startaplar müasir innovasiya modeli kimi ön plana çıxır

Azərbaycanda rəqəmsal iqtisadiyyatın müasir atributlarından biri olan startap ekosistemi də biznes ideyalarının mükəmməl aləti kimi öz imkanlarını artırmaqdadır. Uğurlu biznes layihəsi kimi startaplar kiçik və orta biznesin (KOB) marağında ön plana çıxır və sahibkar tərəfindən əldə edilən "Startap" şəhadətnamələrinin sayı artır. Ölkəmizdə "Startap" şəhadətnaməsi alan biznes subyektlərinin sayı 250-ni ötüb ki, bu da yeni startap nəslinin formalaşdığını göstərir. Startap ailəsi yaxın xarici tərəfdaşları ilə süni intellekt və maşınların öyrənilməsi, əşyaların interneti və şəhər transformasiyası, rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə sıx əməkdaşlıq edərək iqtisadiyyatın rəqəmsallaşmasına da töhfə verirlər.

Azərbaycanlı startapçılar biznes ideyaları, kəşf və bacarıqları ilə artıq qlobal bazarlarda uğurlu investorlar kimi qəbul edilir. Bu motivasiyalar sayəsində son illərdə Azərbaycanın İT və rəqəmsal sektorlarında startap, süni intellekt və biznes ideyaları dünya ölkələrinin startapları ilə rəqabət aparmağa çalışır. Onların KOBİA, Xəzər-Vençur, Elmin İnkişafı Fondu, Prezident yanında Gənclər Fondu, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasında təmsil olunan bacarıqlı gənc ideya müəllifləri kifayət qədər uğur qazanmağa nail olub. Ölkəmizi təmsil edən "SkyBee" komandası Ümumdünya Startap Yarışmasının (World Startup Competition) Asiya və Afrika üzrə Regional Final Müsabiqəsində 30-dan artıq texnologiya şirkəti arasında "Aqrar sektorda ən yaxşı startap" nominasiyasının qalibi olub. Azərbaycanlı startapçılar artıq okenaın o tayında da rəqabət üçün imkanlarını sınamağa çalışır. Bütün bu uğurlu layihə və əməkdaşlıq proqramları startapların müasir biznes modeli kimi ön plana çıxması ölkəmizdə yüksək rəqabətli insan kapitalının formalaşmasında da mühüm rol oynayacaq.

## "Rəqəmsal sənaye" milli ixrac üçün yeni qapı ola bilər

"Rəqəmsal dövlət" quruculuğu strategiyasına əsasən, rəqəmsal ticarətlə yanaşı, sənayenin inkişaf etdirilməsi də nəzərdə tutulur. Bu prosesin əsas hərəkətverici qüvvəsi kimi kiçik və orta sahibkarlıq subyektləri arasında rəqəmsal transformasiyanın dəstəklənməsi, onlara maliyyə dəstəyi mexanizmlərinin göstərilməsi, ələlxüsus da, startapların və tədqiqat mərkəzlərinin sənaye ilə əlaqələndirilməsi məqsədilə vahid rəqəmsal ekosistemin yaradılması nəzərdə tutulur. Motivasiya tədbirləri çərçivəsində rəqəmsal startapların sayı 250-yə, rəqəmsal transformasiya proqramlarında iştirak edən müəssisələrin sayı 300-ə çatdırılacaq.

Həmçinin xarici investorlarla əlaqələr də yeni müstəvidə təşkil olunacaq, xarici investisiyaların cəlbi və innovasiya mühitinin yaxşılaşdırılması məqsədilə prosedurların sadələşdirilməsi, əlverişli investisiya ekosisteminin gücləndirilməsi, ÜDM-də özəl xarici maliyyələşmənin payının davamlı artırılması və rəqəmsal ticarətin inkişafı və yerli müəssisələrin xarici bazarlara çıxışı üçün beynəlxalq e-ticarət platformaları "Amazon", "AliExpress" ilə əməkdaşlığın genişləndirilməsi də strateji hədəf istiqamətlərində yer alır.



**Kadr hazırlığının daha da optimallaşdırılması məqsədilə təhsil sisteminin də üzərinə böyük yük düşür, bu sahədə ixtisaslaşma və peşəkarlığın artırılması öncül istiqamətlərdir. Bu ssenariyə əsasən, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməsi nəzərdə tutulur**

Rəqəmsal iqtisadiyyatın inkişafında insan kapitalının rolu həlledicidir. Dünya İqtisadi Forumunun hesabatı təsdiq edir ki, yaradıcı düşüncə, analitik yanaşma və texnoloji savadlılıq gələcək illərdə ən çox tələb olunan bacarıqlardır. Ayrı-ayrı ölkələrin təcrübələri də bunu sübut edir. Böyük Britaniya rəqəmsal bacarıqları dövlət strategiyasının əsas prioritetinə çevirmiş, Sinqapur isə işçi qüvvəsinin bacarığını artırmaq üçün "sənaye transformasiya xəritələri" tətbiq edir.

Son illər ərzində ölkəmizdə "Elektron hökumət"in formalaşması, dövlət orqanlarının informasiya sistemləri arasında xüsusi infrastruktur vasitəsilə informasiya mübadiləsinin aparılması, "Elektron hökumət"in fəaliyyəti üçün vacib əhəmiyyət kəsb edən dövlət informasiya sistemləri və

## İnsan kapitalına əsaslanan cəmiyyət quruculuğu

ehtiyatlarının yaradılması istiqamətində mühüm işlər görülüb, müasir informasiya-kommunikasiya texnologiyalarının, telekommunikasiya qurğularının və innovasiyaların geniş tətbiqi nəticəsində qabaqcıl texnoloji infrastruktur qurulub. Həmin infrastrukturun bazasında iqtisadi inkişafın daha yeni tələbi olan "Rəqəmsal hökumət"ə keçidin sürətləndirilməsi üçün əlavə imkanlar səfərbər edilib. Çünki müasir inkişaf tələbləri rəqəmsal texnologiyaların tətbiqi və açıq məlumatlardan istifadə yolu ilə xidmətlərin göstərilməsini və dövlət idarəçiliyinin təkmilləşdirilməsini zəruri edir. "Rəqəmsal hökumət"in formalaşması isə rəqəmsal bilik, bacarıq və vərdişlərin artırıldığı, o cümlədən biznes proseslərinin avtomatlaşdırıldığı və rəqəmsal iqtisadiyyatın mövcud olduğu rəqəmsal cəmiyyət qurucluğundan keçir. Azərbaycan bu məqsədlərə çatmaq üçün rəqəmsal texnologiyalardan istifadə yolu ilə dövlət idarəçiliyində səmərəlilik və vahid yanaşma təmin edilməsini, dövlət idarəetməsinin və biznes proseslərinin rəqəmsallaşma ilə bu sahələrdəki pərakəndəliliyi aradan qaldırılmasını, iqtisadi artıma və sahibkarlığın, eləcə də insan kapitalının inkişafına nail olunmasını başlıca hədəflər kimi müəyyən edib. Bu isə yeni kadr hazırlığı üçün möhkəm bazislər deməkdir. Kadr hazırlığının daha da optimallaşdırılması məqsədilə təhsil sisteminin də üzərinə böyük yük düşür, bu sahədə ixtisaslaşma və peşəkarlığın artırılması öncül istiqamətlərdir. Bu ssenariyə əsasən, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməsi nəzərdə tutulur.

Beləliklə, bütün bu sadalanan hədəf çağırışları texnoloji inqilaba, yeni indistrial cəmiyyət quruculuğuna inteqrasiyanı daha da sürətləndirəcək, rəqəmsal iqtisadiyyatla bağlı statistik göstəriciləri yaxşılaşdıracaq. Azərbaycanın bu sahədə mövcud potensialı və inkişaf imkanlarını buna təminat verir. 2025-cü ildə qeyri- neft ÜDM-in təxminən 3 faizi İKT sektorunun payına düşüb. Xidmət sahəsində işləyənlərin isə 2 faizə qədəri informasiya və rabitə sahəsində çalışır. Qeyri-neft xidmət ixracında isə telekommunikasiya və rabitə xidmətlərinin payı 2 faizə yaxındır. Bu göstəricilər sektorun genişlənməsi üçün böyük imkanların mövcud olduğunu göstərir. Rəqəmsal arxitekturanı möhkəmləndirməklə yaxın 5 ildə bu göstəriciləri ən azı 2-3 dəfə artılrmaq mümkündür.

## Kibercinayətkarlıqla mübarizədə yeni strateji yanaşma

İnformasiya təhlükəsizliyinin təmin olunması dövlət siyasətinin mühüm istiqamətidir. Dövlət qurumlarına qorunan telekommunikasiya kanalları, təhlükəsiz internet bağlantısı və mərkəzləşdirilmiş elektron poçt xidməti təqdim olunmuşdur. Bu addımlar kibertəhdidlərin artdığı müasir şəraitdə dövlətin informasiya təhlükəsizliyinə peşəkar və kompleks yanaşmasını təmin edir. Çünki qloballaşmanın daha da dərinləşməsi, eləcə də rəqəmsal ticarətin və maliyyə-bank xidmətlərinin elektronlaşması son illərdə kibertəhdidləri artırır. Kiberterrorlar informasiya sistemlərinin işinin pozmaqla yanaşı, insanların şəxsi həyatına təhlükə törədərək onlara maddi zərər vurulması ilə nəticələnir.

Ümumdünya İqtisadi Forumunun Qlobal Risklər Hesabatına əsasən, kibertəhlükələr bu gün dünyanın üzləşdiyi risklər sırasında ilk yerlərdən birinə çevrilib. Bu isə ölkələrin və insanların məluamtlar bazasının ələ keçirilməsi ilə yanaşı, hədsiz dərəcədə böyük maliyyə itkilərinin yaranmasına səbəb olmaqdadır.

Ümumdünya Kibertəhlükəsizlik Təşkilatının (GISEC) məlumatına əsasən, kiberhücumlar qlobal miqyasda son 4 ildə daha da artıb və kibercinayətkarlıq qlobal iqtisadiyyata hər il 1 trilyon dollardan çox ziyan vurur. Təkcə, 2024-cü ilin birinci yarısında beynəlxalq miqyasda kiberhücumlar 30 faiz artıb və zərərlərin maddi dəyəri 100 milyonlarla dollara bərabərdir. Təhdidlərin artmasının səbəbləri arasında yeni texnologiyaların tətbiqi, zəif müdafiə üsulları və insan amili xüsusi yer alır. Hakerlər daha çox fərdi məlumatları, maliyyə məlumatlarını və dövlət sirlərini hədəfə alır.

Ona görə də, rəqəmsal arxitektura üzrə fəaliyyət planı çərçivəsində yeni nəsil mühafizə avadanlıqları vasitəsilə zərərverici virus mərkəzləşdirilmiş antivirus sistemi vasitəsi ilə bloklanması, Kibertəhlükəsizlik Mərkəzinin fəaliyyətinin gücləndirilməsi də əsas prinsiplərdəndir. Eyni zamanda, Azərbaycan dünya ölkələri ilə birgə əməkdaşlıq çərçivəsində qlobal təhdidlərin qarşısının alınması, yeni həll yollarının tapılması və kibersabitlik üçün tərəfdaşlığın möhkəmləndirilməsi məqsədilə geniş təcrübə mübadilələrini artıracaq.

## Gözləntilər ümidvericidir

Beləliklə, dövlət başçısının rəhbərliyi ilə keçirilən müşavirədə elan edilən mühüm istiqamətlərin hər biri üzrə mövcud imkanların dəyərləndirilməsi və icrası Azərbaycanın rəqəmsal hab mərkəzinə çevrilməsində və yeni milli gəlir mənbələri formalaşdırmasında mühüm rol oyanayacaq.

***E.CƏFƏRLİ***

# Ruben Vardanyan 20 il müddətinə azadlıqdan məhrum edilib



Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə açıq məhkəmə iclasında yekun məhkəmə qərarı (hökm) elan olunub.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

İclasda təqsirləndirilən şəxs, onun müdafiəçisi, zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin bir qismi və onların nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, həmçinin Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak edib.

Hökmə əsasən, R.Vardanyan qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

Xatırladaq ki, məhkəmə iclasında dövlət ittihamını müdafiə edən prokuror təqsirləndirilən R.Vardanyanın ömürlük azadlıqdan məhrum olunmasını təklif etmişdi.

# Veliko Tırnovoda "Şuşa" parkı salınacaq

Uca dağlar qoynunda qərar tutan Şuşa Azərbaycan xalqı üçün müstəsna önəm daşıyan bir diyardır. Buna görə də Azərbaycan dövləti postmüharibə dövründə Şuşanın tarixi şöhrətinin, zəngin mədəni həyatının geri qaytarılması, ənənələrin yaşadılması və daha da zənginləşdirilməsi istiqamətində davamlı fəaliyyətlər həyata keçirir. Artıq müharibə illərində dağıdılmış bir sıra abidələr, məscidlər bərpa olunub və yeniləri tikilib. "Xarıbülbül" musiqi festivalı, Vaqif poeziya günləri şəhərin mədəni həyatını canlandırıb.

Eyni zamanda, Şuşanın beynəlxalq səviyyədə tanıdılması istiqamətində də fəal iş aparılır. Müharibədən sonra  azad Şuşa 2023-cü il üçün Türk, 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı elan edilib və hər iki mədəniyyət ili çərçivəsində xarici qonaqların iştirakı ilə çoxsaylı tədbirlər reallaşdırılıb.

Şuşanın beynəlxalq ictimaiyyətə tanıdılması istiqamətində fəaliyyətlər davam etdirilir. Bu günlərdə dost Bolqarıstanın Veliko Tırnovo şəhərində "Şuşa" parkının salınacağı ilə bağlı xəbərlər yayılıb. Beləliklə də, adı Bolqarıstanın turist marşrutları sırasında yer alan Veliko Tırnovo şəhərinə təşrif gətirən qonaqlar burada həm də Azərbaycanın əfsanəvi şəhəri ilə məlumat almaq imkanı qazanacaqlar.




## Heydər Əliyev Fondunun yaratdığı dostluq körpüsü

Xeyirxahlıq heç vaxt unudulmur. Bolqarıstanın Veliko Tırnovo şəhərində "Şuşa" parkının salınmasına qərar verilməsi də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu şəhərlə yaratdığı dostluq körpüsünün gözəl bir bəhrəsidir.

Məlumdur ki, Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini reallaşdırır. Deyə bilərik ki, bu layihə ilə Azərbaycan xalqının nəcib keyfiyyətləri və dövlətimizin gücü dünya ictimaiyyətinə təqdim olunur. O cümlədən Fond indiyədək ayrı-ayrı ölkələrdə çoxsaylı abidələrin bərpasını reallaşdırmaqla onlara, necə deyərlər, ikinci həyat qazandırıb.

Fondun adı, həmçinin Veliko Tırnovo şəhərinin sakinlərinə də yaxşı tanışdır. Belə ki, şəhərin rəmzlərindən sayılan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiyası və bərpası da Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşıb. Qoruğun bərpadan sonra açılışı 23 sentyabr 2016-cı il tarixində Bolqarıstanın Baş nazirinin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə baş tutub. "Bu tədbirdə iştirak etmək mənim üçün şərəfdir", - deyən Veliko Tırnovo şəhərinin meri Daniel Panov sakinlər adından Azərbaycanın birinci xanımına bu layihəyə görə minnətdarlığını bildirib. "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun tarixindən danışan mer bildirib ki, bu qədim abidənin bərpa edilməsi bolqar xalqının uzun illərdən bəri arzusu olub və bu arzunu Heydər Əliyev Fondu gerçəkləşdirib. Mer bu nəcib missiyanın həyata keçirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya bir daha təşəkkürünü bildirib.

Açılış tədbirində çıxış edən Mehriban xanım Əliyeva tarixi abidənin bərpasında iştirak etməyin son dərəcə qürurverici olduğunu vurğulayaraq bildirib: "Mənə çox xoşdur ki, bu mədəniyyət-muzey mərkəzinin bərpasına Heydər Əliyev Fondu öz töhfəsini verib. Yaşıl təpələr arasında yerləşən Veliko Tırnovo şəhəri XII-XIV əsrlərdə Avropanın aparıcı mədəni, tarixi, ictimai-siyasi mərkəzlərindən biri olub və əvvələn özünün bənzərsiz təbiəti, gözəlliyi, habelə məhz memarlıq xüsusiyyətləri, müdafiə təyinatlı qala divarları ilə fərqlənib. "Trapezitsa" qoruğu bütün bolqar xalqının milli sərvətidir, eyni zamanda, o, Ümumavropa mədəni irsidir. Buna görə bir daha demək istəyirəm ki, dünya əhəmiyyətli bu tarixi-mədəni irsin bərpasına öz töhfəmizi verdiyimizə görə biz də, fondumuz da çox qürur duyuruq".

Qeyd edək ki, "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiya və bərpası, texniki infrastrukturunun inşası və təmiri haqqında" saziş 2015-ci il mayın 27-də Sofiyada imzalanıb. Sazişə əsasən, Heydər Əliyev Fondu tarixi abidədə 158 metr uzunluğunda qərb divarının konservasiyası və bərpasını, 880 metr uzunluğunda turizm xiyabanının salınmasını, mədəni irs mərkəzinin yaradılmasını, ərazidəki orta əsrlərə aid 3 kilsənin təmiri və konservasiyasını həyata keçirib. Qoruğun ərazisində yerləşən tarixi kilsələr də bərpa olunub. XIII və XIV əsrlərə aid bu kilsələr nəinki qoruğun, eləcə də Bolqarıstanın tarixi dini abidələrindən hesab edilir.

Bolqarıstan və Şərqi Avropada tarixi turizm mərkəzlərindən biri olan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunda konservasiya və bərpa işləri 10 ay davam edib. Qoruq bolqar xalqının zəngin mədəni dəyərlərini əks etdirir

Qoruğun ərazisində Mədəni İrs Mərkəzi yaradılıb. Burada Veliko Tırnovo və "Trapezitsa"nın, həmçinin İkinci Bolqar Xanlığının tarixi və burada aparılan arxeoloji tədqiqatlar barədə məlumatlar verilir, eləcə də orta əsrlərə aid müxtəlif eksponatlar sərgilənir. Tırnov şəhəri İkinci Bolqar dövlətinin məşhur paytaxtı, XII əsrin sonundan XIV əsrin sonunadək Avropanın dövlətçilik, mənəvi və mədəni mərkəzi olub.

## Şəhər sakinləri və qonaqlar üçün müasir ictimai məkan

Bəri başdan o fikri ifadə etmək mümkündür ki, turizm şəhəri kimi tanınan Veliko Tırnovoda "Şuşa" parkının yaradılması həm Azərbaycanın, həm də Şuşanın dünyada tanıdılması baxımından müstəsna əhəmiyyət daşıyır. İstirahət mərkəzinin yaradılması Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin bu günlərdə  Bolqarıstan Respublikasına işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti və Veliko Tırnovo Bələdiyyəsi arasında  imzalanan Veliko Tırnovo şəhərində "Şuşa" parkının salınması və yenidən qurulması üzrə əməkdaşlıq haqqında Sazişə əsasən mümkün olacaq. Komitədən verilən məlumata görə, səfər çərçivəsində Anar Quliyev Veliko Tırnovo şəhərinin meri Daniel Dimitrov Panovla görüşüb.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimovun da iştirak etdiyi görüşdə şəhərsalma və memarlıq sahəsində əməkdaşlıq perspektivləri, tarixi şəhər mühitinin qorunması və müasir ictimai məkanların yaradılması istiqamətində təcrübə mübadiləsi məsələləri müzakirə olunub.

Tərəflər qardaşlaşmış şəhərlər institutunun genişləndirilməsi, Azərbaycan və Bolqarıstan şəhərləri arasında birbaşa əlaqələrin gücləndirilməsi və birgə mədəni layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Anar Quliyev cari ilin mayında keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasını (WUF13) qlobal şəhər gündəliyinin müzakirəsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platforma kimi dəyərləndirərək həmkarını bu mötəbər tədbirdə iştirak üçün Bakıya dəvət edib.

"Şuşa" parkı layihəsinin konsepsiyası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzdində fəaliyyət göstərən "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu tərəfindən hazırlanıb, detallı layihələndirmə işləri isə Komitənin sifarişi əsasında Bolqarıstanın "DAD Studio" LTD şirkəti tərəfindən icra olunub.

Şəhərin mərkəzi hissəsində yerləşən və 1,81 hektar ərazini əhatə edən park şəhər sakinləri və qonaqlar üçün müasir ictimai məkan kimi nəzərdə tutulub. Layihə çərçivəsində funksional zonalaşdırma, piyada zolaqları, istirahət və rekreasiya sahələri, süni su hövzəsi və musiqili fəvvarə planlaşdırılıb. Parkın ərazisində Nizami Gəncəvinin abidəsi, "Şuşa" instalyasiyası, bədii həllində isə xarıbülbül motivləri yer alacaq. Burada yerli iqlim şəraitinə uyğun yaşıllaşdırma və abadlıq işləri görüləcək.

***Mübariz ABDULLAYEV***

# Azərbaycan regionun nəqliyyat körpüsünə çevrilir

## Beynəlxalq dəhlizlərlə daşınmış yükün həcmi ötən il rekord həddə çatıb

Azərbaycandan keçən nəqliyyat dəhlizləri ilə ötən il daşınmış yükün həcmi açıqlanıb. 2025-ci ildə nəqliyyat dəhlizlərində dəmir yolu nəqliyyatı ilə 14 milyon 261,4 min ton, avtomobil nəqliyyatı ilə 11 milyon 46,1 min ton və dəniz nəqliyyatı ilə 7 milyon 229,7 min ton yük daşınıb. Şərq-Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi 16 milyon 909,8 min ton, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ilə 8 milyon 173,2 min ton, Şimal-Cənub nəqliyyat dəhlizi ilə 9 milyon 289 min ton, Şimal-Qərb nəqliyyat dəhlizi ilə 5 milyon 804,8 min ton, Cənub-Qərb nəqliyyat dəhlizi ilə 533,6 min ton təşkil edib. Dəmir yolu nəqliyyatı ilə daşınmış yüklər cəmi tranzit həcmlərində 46,2 faizə, avtomobil nəqliyyatı ilə daşınmış yüklər 42,3 faizə, dəniz nəqliyyatı ilə daşınmış yüklər isə 93,3 faizə bərabər olub.

Azərbaycanın tranzit daşınmalarında artıq Ermənistan da yer almaqdadır. Ötən il dekabrın 18-də Azərbaycandan Ermənistana 1220 ton "Aİ-95" markalı avtomobil yanacağı göndərilib. Daha sonra bu il yanvarın 9-da Ermənistan Azərbaycandan 1742 ton "Aİ-95" markalı benzin və 956 ton dizel, yanvarın 11-də isə 979 ton "Aİ-92" markalı avtomobil yanacağı idxal edib. Ötən ilin sonlarından başlanmış bu ticari əməliyyatlar cari ilin yanvar ayında bir qədər yüksəlib. Belə ki, ölkəmizdən Ermənistana yanvardakı ixracının ümumi dəyəri 2 milyon 403,6 min dollar təşkil edib. Bu, Azərbaycanın ümumi ixracının 0,1 faizi deməkdir. Ermənistandan isə Azərbaycana ixrac həyata keçirilməyib.

## Geosiyasi rəqabətdə və tranzit daşınmalarında dayanıqlı mövqe

Göründüyü kimi Azərbaycanın geostrateji mövqeyi və ölkə ərazisindən keçən nəqliyyat dəhlizləri yüklərin nəql edilməsinin daha səmərəli həyata keçirilməsi üçün geniş imkanlar yaradır. Avropa- Asiya marşrutu üzrə avtomobil yolu əsasən ölkəmizdən keçməklə Şərq-Qərb, Şimal-Cənub və Naxçıvan Muxtar Respublikasına çıxışı təmin edən beynəlxalq nəqliyyat dəhlizləridir. Beynəlxalq ticarət və logistika sahəsində Şərq-Qərb Nəqliyyat Dəhlizi regionları birləşdirən, malların daşınmasını asanlaşdıran və iqtisadi artıma təkan verən mühüm rol oynayır. Avropa və Asiya arasında bu dəhlizlər mühüm əhəmiyyətə malikdir. Şərq-Qərb Dəhlizi Türkiyə, Gürcüstan, Azərbaycan ərazisindən keçməklə və daha sonra Mərkəzi Asiyaya uzanan yük daşımaları üçün alternativ marşrut təklif edir. Bu dəhliz Mərkəzi Asiya və Yaxın Şərqi Avropa ilə birləşdirən mühüm ticarət yolu kimi xidmət edir. Şirkətlər bu dəhlizdən istifadə etməklə yeni ticarət yollarına, artan istehlak bazarlarına daxil ola və tədarük zəncirlərini şaxələndirə, bununla da riskləri azaldaraq, gəlirliliyi artıra bilər.

Azərbaycan mövcud geosiyasi rəqabəti və tranzit daşınmalarındakı fraqmentasiyaları nəzərə alaraq öz nəqliyyat infrastrukturunu daim modernləşdirir. Xəzər dənizində ən böyük ticarət qovşağı olan Bakı Beynəlxalq Dəniz Limanının inşa olunması, Ələt Azad İqtisadi Zonasının yaradılması, dəmir yolu infrastrukturlarının şaxələndirilməsi və modernləşdirilməsi, avtomagistrallar, hava limanları kimi yeni layihələrin yaradılması da bu təşəbbüslərin nəticəsidir. Bütün bu addımlar regionda mərkəzi nəqliyyat körpüsü kimi şaxələndirməni təmin etmək, qlobal logistika arteriyalarında mövqeyimizi artırmaq məqsədi daşıyır.

## Orta Dəhlizlə daşınmaların həcmi 5 milyon tona çatıb

Azərbaycanın qətiyyətlə və böyük iradə sayəsində "Bir kəmər, bir yol" layihəsinin ən strateji halqası olan Orta Dəhliz isə polad magistral kimi nəhəng haba çevrilməkdədir. Azərbaycandan Çinə və əks-istiqamətdə qatarının hərəkəti Azərbaycanın həm ixrac potensialını, həm də tranzir ölkə kimi regional əhəmiyyətini ötən il daha da artırıb və ölkəmizin nəqliyyat infrastrukturu Orta Dəhlizə tam inteqrasiya olunub. Azərbaycan Dəmir Yolu, Abşeron Logistika Mərkəzi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" də bu logistika zəncirinə qoşulub. 2025-ci ildə bu marşrut üzrə ümumilikdə 500-dən çox qatar reysi həyata keçirilib. Hazırda Orta Dəhliz üzrə qatarların hərəkəti daha da intensivləşdiyindən daşınma müddəti daha da qısalaraq 15-23 gündən təxminən 11 günə düşüb ki, bu qlobal logistika zəncirində ən sərfəli vaxt müddətidir.

Orta Dəhliz hazırda Çin və Cənub-Şərqi Asiyanı Avropa ilə Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə birləşdirən nəhəng quru-dəniz nəqliyyat-logistika habı kimi qlobal nəqliyyat ailəsinin xüsusi diqqətini cəlnb etməkdədir. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılan dəhlizə digər ölkələr də qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Avropaya qədər uzanır.

Rusiya-Ukrayna müharibəsinin başlaması nəticəsində yaranan qeyri-sabitlik Rusiya ərazisi ilə əlaqəli ənənəvi nəqliyyat marşrutlarını pozdu. Avropanın Rusiyaya qarşı sanksiyaları tranzit marşrutlarını daha da məhdudlaşdırdı. Şimal Dəhlizi boyunca yaranmış fasilələr və problemlər səbəbindən Avrasiya ölkələri və biznes subyektləri alternativ ticarət marşrutları axtarışına çıxarkən Azərbaycandan keçən Orta Dəhliz həyati əhəmiyyət daşıyan bir arteriyaya çevrildi. Son illərdə Orta Dəhliz Çin Xalq Respublikası ilə Avropa arasında əlverişli ticarət marşrutu kimi önəm qazanıb. Qeyd etmək lazımdır ki, Şimal Dəhlizinə əsas alternativ olan Orta Dəhlizlə Çindən Avropaya 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür.




Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımaların həcmi əvvəlki illə müqayisədə 2025-cü ildə 60 faiz artaraq 5 milyon tona çatıb. Qeyd edək ki, 2020-ci ildə bu rəqəm 0,8 milyon ton idi.

## Növbəti dayanacaq Zəngəzurdur

Perspektiv isə daha ümidverici potensiallardan xəbər verir. Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda bölgənin coğrafiyası və logistika xəritəsi dəyişməkdədir, Zəngəzur dəhlizinin Orta Dəhliz zəncirinə qoşulması üçün səylər gücləndirilib. Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa dəhliz hesab olunur. Hazırda bölgədə qurulan dəmir yolu şəbəkələri demək olar ki, yekunlaşmaqdadır. Yaxın vaxtlarda bu işlər tam başa çatdıqdan və nəqliyyat qovşaqları vahid bloka inteqrasiya olunduqdan sonra Zəngəzurdakı resursların da dünya bazarına sözügedən dəhlizlə çıxarılması mümkün olacaq.

Azad ərazilərdə çalışan biznesin ixrac malları birbaşa qatarlarla Çinə daşınması bölgənin əhəmiyyətini də artıracaq. Həmin bölgədə güclü sənaye və aqrar potensiallar var və hazırda bir neçə sənaye müəssisəsi faktiki olaraq fəaliyyətini ölkə iqtisadiyyatına reinteqrasiya edib. Ağdam Sənaye Parkındakı 5 sənaye müəsissəsi bir neçə ay əvvəl istehsala başlayıb. Cəbrayıldakı "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da yaxın günlərdə sənaye istehsalı öz töhfələrini verəcək. Eləcə də bögədə, kənd təsərrüfatı klasterləri qurulmaqdadır.

Bütün bunlar Qarabağ və Şərqi-Zəngəzurun iqtisadi imkanlarını səfərbər edərək malların Orta Dəhlizlə birbaşa uzaq Şərqə və Çinə ixracını təmin edəcək, həmçinin Azərbaycanın iqtisadi gücünü daha da artıracaq.

***E.CƏFƏRLİ***

# “Kupça”ların verilməsində yenilik...

## Nazirlər Kabinetinin qərarı mülkiyyət hüququ ilə bağlı problemləri aradan qaldıracaqmı?

Nazirlər Kabineti 5 oktyabr 2015-ci il tarixli “Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları”nda dəyişiklik edib. Hökumətin qərarına əsasən, hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərlə torpağın kateqoriyası dövlət torpaq kadastrında saxlanılan məlumatlara uyğun gəlmədikdə qeydiyyat orqanının vəzifəli şəxsləri tərəfindən 15 iş günü müddətində yerquruluşu sənədlərinin təhlili yolu ilə araşdırma aparılacaq. Araşdırmanın nəticəsinə əsasən təqdim edilən sənədlərdə göstərilən məlumatların doğruluğu təsdiq edildikdə, əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınır və dövlət torpaq kadastrında müvafiq düzəlişlər edilir.

### Yeni qaydalar nəyi dəyişir?

Mövzunu şərh edən millət vəkili Vüqar Bayramovun sözlərinə görə, yeni qaydalara əsasən, hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərdə torpağın kateqoriyası dövlət torpaq kadastrında saxlanılan məlumatlara uyğun gəlmədikdə qeydiyyat orqanının vəzifəli şəxsləri tərəfindən 15 iş günü müddətində yerquruluşu sənədlərinin təhlili yolu ilə araşdırmasını nəzərdə tutur. Bu o deməkdir ki, vətəndaşlar tərəfindən təqdim edilən sənədlərdə göstərilən məlumatların doğruluğu təsdiq olunduğu halda, əmlak üzərində hüquqlar dərhal müvafiq dövlət qeydiyyatına alınacaq və dövlət torpaq kadastrında düzəlişlər öz həllini tapacaq. Bu isə torpaq və mülkiyyət hüquqları ilə bağlı dərin araşdırmanın aparılmasını nəzərdə tutur. Belə ki, əgər vətəndaş daşınmaz əmlakının qeydiyyata alınması ilə bağlı müraciət edən zaman qeydiyyata məsul olan dövlət qurumunda məlumat fərqli olarsa, o zaman 15 iş günü ərzində dəqiqləşdirmə aparılacaq. Məsələn, vətəndaşın sənədində torpağın təyinatı tikintiyə icazəyə imkan verirsə, amma dövlət qurumunda olan məlumat bazasında o ərazi kənd təsərrüfatı üçün yararlı torpaq kimi görünürsə, o zaman məlumatı dəqiqləşdirmək üçün digər aidiyyatı qurumlara sorğu göndəriləcək. Sorğu zamanı vətəndaşın sənədinin doğruluğu təsdiq olunarsa həmin daşınmaz əmlak qeydiyyata alınacaq.

Bütövlükdə, yeni dəyişikliklər qeydiyyatsız evlərin sənədləşməsi prosesində məlumatların dəqiqləşdirilməsinə xidmət edəcək. Bu həmçinin, mülkiyyət hüquqların tanınması və qorunması baxımından da vacibdir.

### İcra hakimiyyətləri müəyyənedici aktı vermir

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına görə, son illərdə daşınmaz əmlak üzərində mülkiyyət hüququnun qeydiyyatında artım müşahidə edilməkdədir. 2026-cı ilin yanvar ayında 31 min 20 mülkiyyət hüququ qeydiyyata alınaraq çıxarışla təmin edib. Qeydiyyata alınan mülkiyyət hüququnun 5594-ü ilkin, 25426-sı isə təkrar qeydiyyatın payına düşüb. Ötən ay fərdi yaşayış və bağ evi üzərində 6420, mənzil üzər 7338, torpaq sahəsi üzrə 16184, qeyri-yaşayış binası üzrə 271, qeyri-yaşayış sahəsi üzrə isə 754, əmlak kompleksi üzrə 47 və çoxmərtəbəli yaşayış binası üzrə 6 mülkiyyət hüququnun dövlət qeydiyyatı aparılması təmin olunub. Mülkiyyət hüquqlarının 7562-si Bakı şəhərinin, qalan hissəsi isə bölgələrin payına düşüb. Yanvarda 21928 texniki pasport tərtib edilib, 5271 ipoteka müqaviləsi qeydiyyata alınıb. Bu statistika əmlak üzərində mülkiyyət hüququna dair çıxarışların (şəhadətnamə) sayının artması deməkdir.

Ancaq mövcud situasiyaya baxmayaraq, bir sual meydan çıxır, on minlərlə sənədsiz evin çıxarış sənədləri ilə təmin edilməsi niyə neçə ildir ki, təmin edilmir, nədir problem?

Əmlak Komitəsi illərdir ki, çıxarış ala bilməyən fərdi evlərin problemini müvafiq icra hakimiyyəti orqanı və bələdiyyələrin təqdim etdiyi sənədlərin hüquqi müəyyənedici aktının olmaması ilə əlaqələndirir. Araşdırmalar göstərir ki, əmlak hüququ olmayan, yəni sənədsiz hesab edilən yaşayış evlərinin böyük əksəriyyəti, təxminən 90-95 faizi fərdi tikililərdir. Həmin tikililərə çıxarış almaq üçün torpaq sahəsi üzərində mülkiyyət və istifadə hüququnu təsdiq edən sənədlər tələb olunur. Həmin sənədlərin sırasında tikintiyə dair müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə, tikinti obyektinin layihəsinin memarlıq-planlaşdırma bölməsi, tikinti başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanına sifarişli poçt göndərişi ilə və ya bilavasitə məlumat verilməsini təsdiq edən sənəd, yaşayış evinin istismara qəbul aktı mütləqdir. Eləcə də, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” qanununun 6.2-ci maddəsinə uyğun olaraq yaşayış evinin inşa edilməsi məqsədilə torpaq sahəsinin ayrılması barədə Bələdiyyənin Qərarı və alqı-satqı (aktla tərtib edilmiş) müqaviləsi, 2007-ci il dekabrın 1-edən isə hərrac protokolu və hərracın nəticələrinə uyğun olaraq bağlanmış alqı-satqı müqaviləsi tələb olunur. Həmin qərarların əksəriyyəti isə hazırda faktiki olaraq əmlakın rəsmiləşdirilməsi üçün hüquqi təminat vermir.

Vətəndaşlar bütün bu sənədləri Əmlak Məsələləri Dövlət Xidmətinin müvafiq rayon və yerli şöbələrinə təqdim etdikdən sonra 2 həftə ərzində mülkiyyət hüququna dair çıxarış əldə edə bilirlər.

Göründüyü kimi daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı, yeni çıxarışın (kupça) alınması üçün vətəndaşlar ilkin zəruri sənədləri toplamalıdır. Həmin sənədlər olmadıqda və yaxud hüquqi müəyyənedici tələblərə cavab vermədikdə mənzil və fərdi evlərin rəsmiləşdirilməsi mümkün hesab edilmir.

İcra hakimiyyəti mühəndis-kommunikasiya xətlərinin üzərində və yaxınlığında, yüksək gərginlikli elektrik xətlərinin altında, digər kommunikasiya qurğularının ətrafında, eləcə də dəmiryol xəttinin yaxınlığında inşa edilmiş evləri müəyyənedici aktının olmadığını əsas gətirərək sənəd vermir.





### Sənədsiz evlərin sayı 500 mindən çoxdur

Hüquqi tələblərə cavab verməyən evlər və mənzillər etibarsız mülkiyyət növü, sənədsiz əmlak kimi tanınır. Ekspertlər deyir ki, paytaxt və paytaxtətrafı ərazilərdə, habelə Abşeron rayonu ərazisində tikilmiş fərdi evlərin 70 faizindən çoxunun yuxarıda qeyd edilən müvafiq sənədləri yoxdur. Təxmini hesablamalara əsasən, ölkəmizdə, ümumilikdə, 1 milyona yaxın sənədsiz ev var ki, onun təxminən 500 mini paytaxtın və Abşeron rayonun payına düşür. Həmin evlər mühəndis-kommunikasiya xətlərinin üzərində və yaxınlığında, yüksək gərginlikli elektrik xətlərinin altında, digər kommunikasiya qurğularının ətrafında, eləcə də dəmiryol xəttinin yaxınlığında inşa edilib. Onların bir qismi sovet dövründə, qalanı isə müstəqilliyin ilk illərində inşa edilib və əksəriyyətinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən müəyyənedici aktı yoxdur.

Bundan başqa, bir çox evlər bələdiyyələr tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqlarda inşa olunub. Həmin evlərin içərisində mühəndis-kommunikasiya qurğularının yaxınlığında yerləşməyən, yəni hüquqi baxımdan sənədləşdirilməsi mümkün olan evlərin sayı kifayət qədər çoxdur. Bunun üçünsə Torpaq Məcəlləsinə dəyişikliklər edilməlidir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı isə bildirib ki, Azərbaycanda sənədsiz evlərin sayı 500 mindən çoxdur. Bu istiqamətdə aparılan islahatların əmlakın leqallaşmasının uğurla nəticələnməsinə səbəb ola bilər. Belə ki, hazırda müvafiq qurumlar koordinisiyalı şəkildə sənədsiz evlərin sənədləşdirilməsi üçün təhlillər aparır, təkliflər sənədi hazırlayır.

V.Qasımlı hesab edir ki, sənədsiz evlərin leqallaşması ölkənin maliyyə-bank sektoru, xüsusilə də sığorta sahəsi üçün ciddi imkanlar yarada bilər. 500 min sənədsiz evin ümumi bazar dəyəri təxminən 50 milyard manat təşkil edir. Hesab edirəm ki, real rəqəmlər bundan da böyükdür. Bu qədər məbləğ maliyyə-bank sektoru, xüsusən də sığorta sahəsi üçün nə qədər geniş imkanlar açır.

### Milli Məclis qarşısında yeni təkliflər

Vətəndaşların əmlak hüquqları ilə bağlı problemin həlli, ümumilikdə daşınmaz əmlak bazarında mülkiyyətə dair prosedurların asanlaşdırılması istiqamətində müxtəlif səmərələşdirici təkliflər hazırlanmaqdadır. Millət vəkili Nurlan Həsənov daşınmaz əmlakla bağlı kompensasiyanın qabaqcadan və ədalətli ödənilməsi prosedurunu tənzimləyən yeni qanun layihəsinin hazırlanması təklifi ilə çıxış edib. Deputat hesab edir ki, daşınmaz əmlakın dövlət və ictimai ehtiyaclar üçün əldə edilməsi, həmçinin bu barədə qərar qəbul etmək səlahiyyətinə malik orqanların fəaliyyəti, kompensasiyanın qabaqcadan və ədalətli ödənilməsi proseduru, forması və meyarları kompleks şəkildə yeni qanunla müəyyənləşdirilməlidir. Deputat hesab edir ki, belə bir sənədin qəbulu ölkə üçün faydalı olar.

N.Həsənov bildirib ki, Konstitusiya Məhkəməsi Plenumunun 22 may 2020-ci il tarixli qərarında qaldırılan məsələlərlə bağlı qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində Milli Məclisə müvafiq tövsiyələr verilib. Beynəlxalq təcrübənin təhlili də göstərir ki, əksər ölkələrdə mülkiyyətdə olan əmlakın dövlət və ictimai ehtiyaclar üçün alınması qaydaları ayrıca normativ-hüquqi aktlarla tənzimlənir. Şəhərsalma və Tikinti Məcəlləsi normalarına uyğun olaraq, dövlət ehtiyacları ilə bağlı olmayan məqsədlər üçün tikinti işlərinin aparılması qaydalarının da təkmilləşdirilməsinə ehtiyac var. Belə tikinti fəaliyyətinin mülkiyyətçilərin iradəsinə zidd şəkildə həyata keçirilməsi şərtləri daha dəqiq müəyyənləşdirilməlidir.

**E.CƏFƏRLİ**

## Media: Macarıstan və Slovakiya ABŞ-nin Avropadakı əsas müttəfiqlərinə çevrilir



Macarıstan və Slovakiya ABŞ-nin Avropa qitəsində yeni əsas müttəfiqləri kimi ortaya çıxır, Almaniya və Fransa ilə münasibətlərdə soyuqluq isə davam edir.

AZƏRTAC xəbər verir ki, “NBC” telekanalının məlumatına görə, analitiklər ABŞ Dövlət katibi Marko Rubionun Münxen Təhlükəsizlik Konfransında son çıxışı zamanı Vaşinqtonun Avropadakı müttəfiqləri haqqında xoş sözlər söyləməsinə baxmayaraq, Birləşmiş Ştatların onlarla qarşı münasibəti yenə də “soyuq” olaraq qalır.

Onların fikrincə, Marko Rubionun konfransdan sonrakı hərəkətləri Donald Tramp administrasiyasının Avropada kimi əsl müttəfiq hesab etdiyinə dair açıq siqnal kimi qəbul edilə bilər. Belə ki, ABŞ Dövlət katibi Münxendən birbaşa Bratislavaya uçub və orada Slovakiyanın Baş naziri Robert Fitso ilə görüşüb, daha sonra Macarıstanın Baş naziri Viktor Orbanla danışıqlar aparmaq üçün Budapeştə gedib.

Telekanalın məlumatına görə, Macarıstan və Slovakiyanın Qərbdə mövcud olan bir çox liberal dəyərləri rədd edən, sərt immiqrasiya siyasəti yürüdən, həmçinin ABŞ Prezidenti və Respublikaçılar Partiyası ilə əlaqəli MAGA (Amerikanı yenidən böyük et) hərəkatının ideyalarına rəğbət bəsləyən xristian dövlətləri kimi hazırkı Vaşinqton administrasiyasını cəlb edir.

## Ekspertlər Avropa iqtisadiyyatının dirçəldilməsi üçün əsas addımları müəyyən edirlər

Avropa İttifaqı iqtisadiyyatı son illərdə zəif artım nümayiş etdirir ki, bu da ekspertlərin fikrincə, xarici böhranlardan daha çox daxili struktur problemlərin nəticəsidir.

AZƏRTAC xəbər verir ki, Aİ ölkələrində mətbuatın monitorinqinin nəticələrinə görə, aparıcı Avropa iqtisadçıları tərəfindən hazırlanmış çoxsaylı hesabatlara və tövsiyələrə baxmayaraq, real islahatlar yavaş-yavaş irəliləyir.

Analitiklərin qeyd etdiyi kimi, əsas səhv Avropa hakimiyyət orqanlarının mücərrəd “rəqabətədavamlılıq” amilinə diqqət yetirməsidir, halbuki əsas məqsəd əmək məhsuldarlığının artırılması olmalıdır. Aİ güclü ixracatçı olaraq qalır və ticarət profisitini qoruyur, lakin İttifaqın iqtisadiyyatı davamlı gəlir artımını təmin etmək üçün kifayət qədər dinamik deyil.



Avropada məhsuldarlıq 2000-ci illərin əvvəlindən bəri ildə 1%-dən az artır və 2020-ci ildən başlayaraq, faktiki olaraq durğunluq vəziyyətindədir. Bu, ABŞ-də olan vəziyyətlə kəskin şəkildə ziddiyyət təşkil edir. Ekspertlər qeyd edirlər ki, Avropanın iqtisadi modeli böyük, mövcud korporasiyalara həddindən artıq üstünlük verir, habelə rəqabəti, innovasiyanı və yeni şirkətlərin böyüməsini məhdudlaşdırır.

Vəziyyət Ukraynada müharibənin başlamasından sonra yüksək enerji qiymətləri, Amerika proteksionizminin artması və Çinin bir sıra yaşıl sənayelərdə texnoloji üstünlüyü ilə daha da ağırlaşır. Ekspertlər hesab edirlər ki, dərin islahatlar - bazarın liberallaşdırılması, investisiya təşviqləri və tənzimləyici maneələrin azaldılması olmadan Avropa uzun müddət iqtisadi durğunluq vəziyyətində qalmaq riskini daşıyır ki, bu da təkcə iqtisadi deyil, həm də ciddi siyasi nəticələr doğuracaq.

## Fransa siyasətində “ifrat solçu” gərginliyi yaranıb

Fransada solçu siyasi hərəkat “Əyilməz Fransa” (LFI) Daxili İşlər Nazirliyi tərəfindən “ifrat solçu” blokuna daxil edilməsi qərarına qarşı Dövlət Şurasına müraciət edib.



AZƏRTAC xəbər verir ki, bu barədə Milli Assambleyada LFI fraksiyasının sədri Matild Pano məlumat verib.

M. Panot LCP televiziya kanalında keçirilən debatda və X sosial şəbəkəsindəki hesabında bildirib ki, müraciət konkret olaraq daxili işlər naziri Loran Nunezin LFI-ni “ifrat solçu” kimi təsnif etməsi qərarına yönəlib. Onun sözlərinə görə, əvvəlki seçkilərdə hərəkat “solçu” bloku çərçivəsində göstərilirdi.

Müraciət Fransa prezidenti Emmanuel Makronun bu yeni inzibati təsnifatı dəstəklədiyini açıqlamasından sonra edilib. Dövlət başçısı “Radio J” radiosuna müsahibəsində “La France insoumise ifrat solçudur” deyərək, hərəkatın bəzi mövqelərinin Respublikanın dəyərlərinə zidd olduğunu bildirib. O, xüsusilə antisemitizm məsələsində LFI-nin mövqelərini tənqid edib.

“Fransızlar parlamentə nümayəndələr seçirlərsə, onları institutlardan kənarlaşdırmaq olmaz. Lakin bəzi mövqelərində, xüsusilə antisemitizm məsələsində, onlar Respublikanın əsas prinsiplərinə zidd hərəkət edirlər”, - deyə Emmanuel Makron qeyd edib.

Bu ittihamlar LFI rəhbərliyi tərəfindən qəti şəkildə rədd edilib. Partiyanın koordinatoru Manuel Bompar bildirib ki, Respublika prezidentinin siyasi rəqiblərini təsnif etmək səlahiyyəti yoxdur. O, həmçinin vurğulayıb ki, LFI üzvlərindən heç biri antisemitizmə görə məhkum olunmayıb.

Məsələ siyasi arenada mübahisələri daha da dərinləşdirib və qərarın hüquqi taleyi indi Dövlət Şurasının qərarından asılı olacaq.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Niyyət axşamında hər dua dəyərlidir...

*Yeganə BAYRAMOVA*



Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Qazılar Şurası Ramazan ayının başlaması münasibətilə fətva verib. Fətvada deyilir ki, bu il Ramazan ayının 1-i miladi təqvimlə fevral ayının 19-na təsadüf edəcək.

QMİ-nin verdiyi fətvada fitrə zəkatının miqdarının adambaşına 10-15 manat civarında müəyyən olunduğu qeyd olunub.

**Novruz süfrələrini iftar saatlarına uyğunlaşdırın...**

Fətvada, həmçinin bildirilib: “Bu il Rəbbimizin vacib ilahi əmri olan mübarək Ramazan təqvimi Azərbaycan xalqının çoxəsrlik tarixində özəl yeri və milli önəmi olan Novruz ilə üst-üstə düşür.

Min illər boyu qeyd edilən mübarək Novruz torpağın oyanışını, təbiətin yenilənməsini və bəşərin intibahını təcəssüm etdirir. Novruzda savaşlar dayanmış, küsülülər barışmış, insanlar sevinclərini və sabaha ümidlərini bir-biri ilə bölüşmüşlər. Biz Ramazanın ilahi önəmini nəzərə alaraq tövsiyə edirik ki, çərşənbə axşamlarında açılan Novruz süfrələri iftar saatlarına uyğunlaşdırılsın və bununla da xalqımız həm Ramazanın, həm də Novruzun sevinc və bərəkətlərinə qovuşsun. Zəfər dönəmini yaşayan Azərbaycanda müqəddəs Ramazan və mübarək Novruz bayramlarının üst-üstə düşməsi Uca Allahın Lütfü ilə xeyirlərə vəsilə olan böyük müjdədir”.

Qeyd edilib ki, Ramazan bayramının tarixi Şəvval ayının hilalının görünməsindən asılı olaraq böyük ehtimalla 20 marta təsadüf edəcək.

**Ramazan ayının ilk gecəsi**

Məlumdur ki, Ramazan ayı İslam aləmində on bir ayın sultanı olaraq adlandırılır. Ramazan ayı, eyni zamanda, qəlblərin dirildiyi, könüllərin nurlandığı, insani keyfiyyətlərin yenidən xatırlandığı, mənəvi hisslərin ən üst mərtəbəyə qalxdığı bir aydır. Bu mənada Ramazan ayı Allahın möminlərə bəxş etdiyi böyük bir lütf və nemətdir.

Məlumdur ki, müqəddəs Ramazan ayının ilk gecəsi niyyət axşamıdır. Gecənin əvvəlindən sübh azanına qədər istənilən vaxt qəlbdə niyyət etməklə hər bir müsəlman bu müqəddəs aya başlamış olur.

**Niyyət necə edilməlidir?**

İlahiyyatçı Ağa Hacıbəyli “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, oruc tutan şəxsin edəcəyi əməli özü üçün müəyyənləşdirməsi niyyət sayılır. Bu şəxs orucun axırına kimi bu müəyyənliyində sabit qalmalıdır: “Niyyəti dilə gətirmək vacib deyil. Oruc tutanlar bütöv ay üçün, yaxud ayrıca günlər üçün niyyət edə bilərlər”.

**Niyyət etmək oruc tutan şəxsin yadından çıxıbsa...**

İlahiyyatçı qeyd edib ki, niyyət gecənin əvvəlindən sübh azanına qədərki zaman periodunda, istənilən vaxt edilə bilər: “Əgər niyyət etmək oruc tutan şəxsin yadından çıxsa, yaxud bilməsə və günortadan əvvəl yadına düşsə, bu halda orucu batil edən işlərdən görməyibsə, niyyət etməlidir. Əgər orucu batil edən işlər görübsə, yaxud günortadan sonra yadına düşsə, orucu pozulmuş hesab edilir. Lakin şam azanına qədər orucu batil edən işlərdən - yeməkdən, içməkdən və s. çəkinməli, sonradan həmin günün qəzasını tutmalıdır”.

# Sevinc, ümid və dirçəlişin ünvanı...

## Ağdama növbəti köç yola salınıb

Bir vaxtlar Qarabağın göz bəbəyi sayılan Ağdam uzun illər boyu viran qaldı. Dağıdılmış evlər, susmuş küçələr, talan edilmiş məzarlıqlar... Amma tarix göstərdi ki, torpaq öz sahibini unutmur. Bu gün işğaldan azad edilmiş rayonlarımıza köç yalnız fiziki məskunlaşma prosesi deyil, dövlət gücünün və xalqın səbrinin təntənəsidir.

### 13 milyard 135 milyon dollar ziyan dəyib

1993-cü il iyulun 23-də 42 gün davam edən döyüşlərdən sonra Ermənistan Silahlı Qüvvələri Qarabağın mərkəzində yerləşən Ağdamın böyük hissəsini işğal etmişdi.

İşğal müddətində erməni vandalizminə ən çox məruz qalan ərazilərimizdən biri məhz Ağdam olub. Ermənilər rayonu tamamilə dağıdıb, yerlə-yeksan edib. Hesablamalara görə, rayona 13 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan dəyib. Rayon uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq insan şəhid olub, minlərlə insan yaralanıb, 143 minə yaxın əhali öz doğma ev-eşiyindən qovularaq məcburi köçkün kimi Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşmışdı. İşğal nəticəsində ermənilər tərəfindən rayonda olan bütün tikililər, evlər dağıdılıb, hətta daşlar belə sökülüb aparılmışdı.





### Ağdama yeni nəfəs, yeni həyat qayıdır...

Bu gün isə artıq Azərbaycanın işğaldan azad olunmuş ərazilərində, o cümlədən, Ağdamda böyük bərpa-quruculuq işləri aparılır. Ağdamda “ağıllı şəhər” konsepsiyasına uyğun müasir infrastruktur qurulur, yeni nəfəs, yeni həyat qayıdır. Prezident İlham Əliyevin söylədiyi “Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək”, - fikirləri qısa müddət ərzində artıq reallaşmağa başladı. Azərbaycan öz gücünə nəhəng işlərə start verdi. Sıfırdan bərpa-quruculuq işlərinə başladı.

Qeyd edək ki, işğaldan azad olunmuş rayonlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin tərkib hissəsi kimi bu ərazilərimizdə mühüm yol-nəqliyyat layihələrinin icrasına da xüsusi diqqət yetirilir. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi bölgədə ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, rayonun sosial-iqtisadi dirçəlişinə və regionlararası əlaqələrin genişlənməsinə mühüm töhfə verəcək, öz ata-baba yurdlarına qayıdan soydaşlarımızın digər şəhər və rayonlara rahat şəkildə səfər etməsində böyük rol oynayacaq, ümumilikdə Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə xidmət edəcək. Eyni zamanda, bu cür mühüm infrastruktur layihəsinin həyata keçirilməsi Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizdə nəqliyyat sahəsində görülən işlərin ardıcıl və yüksək keyfiyyətlə davam etdiyinin bariz nümunəsidir.

### 120 ailə sevinci

Dünən Ağdama növbəti köç karvanı yola salınıb. Bu mərhələdə 120 ailə - 419 nəfər doğma yurduna qovuşub.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Fidan Məmmədli bildirib ki, Ağdamda aparılan bərpa-quruculuq işləri çərçivəsində 5-ci yaşayış kompleksinin tikintisi davam etdirilir. Layihəyə uyğun olaraq, yaşayış kompleksində 50 binanın inşası nəzərdə tutulur.

Onun sözlərinə görə, artıq 2-ci yaşayış kompleksinə sakinlərin köçü təmin olunu: “Bu yaşayış kompleksində 103 ailə olmaqla, 403 ailə yaşayır. Ağdamda digər yaşayış kompleksində də işlər davam edir.

5-ci yaşayış kompleksində isə 50 binanın inşası nəzərdə tutulur. Onlardan 40-ı çoxmənzilli yaşayış binası, 10-u qeyri-yaşayış binalarıdır. Bu yaşayış kompleksi 12 məhəllədən ibarət olacaq. Ümumilikdə 1074 mənzilin inşası planlaşdırılır”.

F.Məmmədli qeyd edib ki, yaxın vaxtlarda 3-cü yaşayış kompleksində də tikinti işlərinə başlanılması nəzərdə tutulur. 3-cü yaşayış kompleksi 13 məhəllədən ibarət olacaq.

Bu gün nəinki Ağdama, azad olunan digər torpaqlarımıza qayıdan hər bir ailə öz ocağının közünü yenidən alovlandırır. Uşaqların gülüşü illərlə səssiz qalmış küçələrə həyat verir. Yeni tikilən evlər, məktəblər, xəstəxanalar - bunlar sadəcə binalar deyil, gələcəyin rəmzləridir. “Ağıllı şəhər” konsepsiyası ilə qurulan Ağdamımız isə müasirliyin və tarixi yaddaşın vəhdətini özündə birləşdirir, keçmişin ağrısı gələcəyin ümidinə çevrilir...

*Yeganə BAYRAMOVA*

# Tünd şokolad nəyə xeyirdir?



Tünd şokoladın orta miqdarda müntəzəm istehlakı ürək-damar sağlamlığı göstəricilərinin yaxşılaşması və metabolik risklərin, o cümlədən qaraciyərin piylənməsi ilə bağlı amillərin azalmasına səbəb ola bilər.

“Nutrients” jurnalında dərc olunmuş icmalın müəllifləri bu nəticəyə gəliblər.

Ürək-damar xəstəlikləri və qaraciyərin metabolik disfunksiyası (MASLD) inkişafın ümumi mexanizmlərinə, yəni xroniki iltihab, oksidləşdirici stres, lipid və karbohidrat mübadiləsinin pozulmasına malikdir. İcmalda yer alan məlumata görə, kakao flavanolları (xüsusilə epikatexin və katexinlər) prosesə təsir göstərə bilər: azot oksidinin bioəlçatanlığını artırmaq, oksidləşdirici stresin səviyyəsini və iltihabyaradıcı siqnalların aktivliyini azaltmaq qabiliyyətinə malikdir.

Klinik tədqiqatlarda tünd şokoladın orta miqdarda istehlakı lipid profilinin yaxşılaşması ilə əlaqələndirilib, yəni “yaxşı” xolesterinin səviyyəsinin artması, ümumi xolesterin səviyyəsinin azalması müşahidə olunub. Həmçinin, damar funksiyasının göstəricilərinin yaxşılaşması, arterial təzyiqin azalması, qaraciyər hüceyrələrinin zədələnməsi və iltihab markerlərinin azalması barədə məlumat verilib. Bununla belə, müəlliflər vurğulayırlar ki, tədqiqatların əksəriyyəti azsaylı iştirakçıları əhatə edib və qısamüddətli olub.

Tədqiqatçılar qeyd edirlər ki, söhbət məhz yüksək kakao və flavanol tərkibli tünd şokoladdan gedir. Bununla yanaşı, şokoladın infarkt riskini azaltdığını və ya qaraciyər xəstəliklərinin inkişafını ləngitdiyini təsdiqləyən kifayət qədər sübut hələ ki mövcud deyil. Müəlliflərin sözlərinə görə, bu məhsul balanslaşdırılmış qidalanmaya mümkün əlavə kimi nəzərdən keçirilə bilər, lakin müstəqil profilaktika vasitəsi hesab olunmamalıdır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4813**
**Sifariş: 245**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova